### YAP İdarə Heyətinin iclası keçirilib



Bax 3

### Prezidentin ictimai dərsi və mühüm mesajı



Bax 5

### Almaniya Bundestaqının vitse-prezidenti: “Xocalıda baş verənlər insanlığın faciəsidir”



Bax 8



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 046 (6011) 7 mart 2020-ci il. Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Azərbaycan qadını cəmiyyətdə böyük nüfuza malik olduğunu əməllərilə təsdiqləyib

*Prezident İlham Əliyev: “Qadınlarımızın hazırkı ictimai mövqeyi və işgüzar nüfuzu vahid məfkurə ətrafında birləşmiş cəmiyyətimizin mühüm reallıqlarından biridir”*



Bax 4

## XİN: “Bu cinayətə görə tam məsuliyyət işğalçı ölkə Ermənistanın üzərindədir”

Bax 3



Martın 5-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Qazax rayonu istiqamətində Ermənistan silahlı qüvvələri atəşkəs rejimini növbəti dəfə kobud şəkildə pozub. Düşmən qüvvələrin snayperdən açdığı atəş nəticəsində Qazax rayonu Quşçu Ayrım kəndi yaxınlığındakı sərhəd döyüş məntəqəsindəki sərhədçi əsgərimiz Orxan Nazim oğlu Paşazadə qətlə yetirilib. Baş verən bu qanlı insident məqsədyönlü təxribat xarakteri daşıyır və bu cinayətə görə tam məsuliyyət işğalçı ölkə Ermənistanın üzərindədir.

## Erməni saytı Nikol Paşinyanı və hökumətini virus adlandırdı



*“Koronavirusla bağlı məsələ Nikol Paşinyanın rəhbərlik etdiyi hökumətin qeyri-ciddiliyini və ictimai təhlükəyə yol açdığını növbəti dəfə aşkar etdi”. Bu barədə Ermənistanın “7or.am” xəbər saytının təhlil bölməsində yazılıb. Ermənistan hakimiyyətinin bir-birini təkzib edən bəyanat və rəylərini ifşa edən yazıda xronoloji sıralama ilə bir sıra məqamlara toxunulub:*

Bax 8

## DSX: “Ermənistan ordusu dövlət sərhədində təxribat törədib”

Martın 6-da Ermənistan mətbuatında Azərbaycan-Ermənistan dövlət sərhədinin Qazax rayonu istiqamətində Azərbaycan tərəfinin diversiya keçirməsi və nəticədə Ermənistan silahlı qüvvələrinin 1 nəfər hərbi qulluqçusunun yaralanması barədə məlumatlar yayılıb. Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, DSX-nin hərbi qulluqçuları tərəfindən diversiya keçirilməsi barədə məlumat həqiqətə uyğun deyil və reallığı əks etdirmir.

Bax 3

## Azərbaycan qadınları ölkəmizin inkişafı prosesində fəal iştirak edirlər



Ölkəmizdə 8 Mart Beynəlxalq Qadınlar Günü vacib bayramlardan biri kimi dəyərləndirilir. Əvvəla ona görə ki, dünyanın əksər ölkələrində qeyd olunan 8 Mart Beynəlxalq Qadınlar Günü təkcə qadınların deyil, həm də qadınları təbrik edən kişilərin bayramıdır.

Bax 6

## Tibbi maska və spirt çatışmazlığı, yoxsa bəzi şəxslərin “oyunbazlığı”?




Son günlər koronavirus təhlükəsi əczaxanalarda qoruyucu və dezinfeksiya vasitələrinin qıtlığına və bahalaşmaya səbəb olub. Prezident İlham Əliyev Goranboy rayonuna səfəri zamanı Rayon Mərkəzi Xəstəxanasının açılışında da bildirdi ki, ölkədə kifayət qədər maska ehtiyatı olmasına baxmayaraq, öz tamahını təmin etmək üçün bəd əməllərə üz tutan vətəndaşlar var ki, onlara qarşı ən ciddi cəza tədbirləri tətbiq ediləcək. Paytaxt sakinləri hələ də əczaxanalarda spirt və tibbi maska əldə etməkdə...

Bax 7

### Haqq və ədalətin inkarı: “Freedom House”un qərəzli hesabatları

FREEDOM HOUSE

Bax 14

### Almazbek Atambayevin məhkəməsi qapalı keçiriləcək



Bax 11

### Bu gün bəzi bölgələrdə 20 dərəcə isti olacaq



Bax 12

# Prezident hər görüşdə qətiyyətli sözünü deyir

## *Prezident İlham Əliyev: "Korrupsiya və rüşvətxorluğa qarşı mübarizə Azərbaycanda ən ciddi formada aparılır və bunun təzahürləri göz qabağındadır"*



Məhz Prezident İlham Əliyevin sözünə, vədinə sadiq qalan dövlət başçısı imicini qazanması bütün sahələrdə, son 16 ildə özünü dəfələrlə təsdiqləyib. Son 16 il ərzində, Azərbaycanda həyat günbəgün dəyişir. İnsanların həyat səviyyəsinin yaxşılaşdırılması ilə yanaşı, Azərbaycanın siması yeniləşir. Dəyişən təkcə Azərbaycanın gözlə görünən reallıqları deyil, eyni zamanda, insanların düşüncələri də dəyişib. Çünki bugünkü Azərbaycan vətəndaşı həyata başqa nəzərlərlə baxır, özünə və ölkəsinin bundan daha böyük uğurlar əldə edəcəyinə inanır. Bu inam hər il, görülən daha böyük uğurların nəticələrini gördükcə, sabaha bağlılıq daha da artır. Bu yerdə Prezident İlham Əliyevin 2003-cü ildə keçirilən andiçmə mərasimində söylədiyi bu fikirləri bir daha yada salmaq yerinə düşər: "Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün, ən başlıcası, ölkədə Ümummilli Lider Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən, mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm."

16 il öncə deyilənlər, bu gün öz müsbət nəticəsini verib. Bu gün Prezident İlham Əliyevin müdrik və uzaqgörən inkişaf strategiyası nəticəsində, dayanıqlı və davamlı iqtisadi inkişafa nail olan, dünyadakı nüfuzu durmadan artan, regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilən ölkəmiz bu gün müəyyən edilmiş hədəflərə doğru inamla irəliləyir, ötən hər il bütün sahələrdə əldə olunan böyük uğurlarla tarixə düşür. Bu nailiyyətlərin əldə edilməsində müstəsna rolu olan dövlət proqramları regionların iqtisadi potensialının əhəmiyyətli dərəcədə artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin daha da yaxşılaşmasına, müasir müəssisələrin açılmasına səbəb olmuş, Azərbaycanı bütün bölgələrində dinamik tərəqqi yaşanan bir ölkəyə çevirmişdir. Bax, budur uğurlu siyasət!

### "Əsl siyasət konkret real iş görməkdir"

Bəli, bu, həqiqətən də, belədir. "Əsl siyasət konkret real iş görməkdən ibarətdir" deyən dövlət başçısının ötən illərdə qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar Cənab Prezidentin daim xalqın mənafeyindən çıxış etdiyini, habelə, verdiyi vədlərini sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini, gerçəkliyə adekvat olduğunu göstərmişdir. Çünki bugünkü Azərbaycan vətəndaşı həyata başqa nəzərlərlə baxır, özünə və ölkəsinin bundan daha böyük uğurlar əldə edəcəyinə inanır. Bu inam, hər il görülən daha böyük uğurların nəticələrini gördükcə, sabaha daha böyük bağlılıq yaranır.

Bəli, bu, Azərbaycan Prezidenti İlham Əliyev Cənablarının əsl siyasətidir. Dövlət başçısı növbəti dəfə nümunə ola biləcək addım ataraq, bir daha gənclərə öz tövsiyəsini verdi: böyüyə yer vermək lazımdır. Bu fakt, bir daha göstərir ki, xalqımıza xas mənəvi keyfiyyətlərin qorunması hər kəs üçün vacib missiya olmalıdır. Prezident İlham Əliyevin bu dəyəri gündəmə gətirməsi və daim diqqətdə saxlaması özündə bir çox amilləri ehtiva edir: ənənəvi dəyərlərə sadiqlik, böyüyə hörmət və sadəlik.

Ölkə başçısı bütün tədbirlərdə, keçirdiyi görüşlərdə böyüklərə, ağbirçəklərə bəslədiyi hörmətlə daim məmurlara nümunə göstərib. Prezidentin istər şəhid ailələri ilə görüşündə, istərsə də bölgələrə səfəri zamanı yaşlı insanlarla səmimi söhbətləri, onları qayğılandıran məsələlərlə bağlı həssas yanaşması deyilənlərin təsdiqidir.

Prezident İlham Əliyev İsmayıllı və Neftçala rayonuna yeni təyin etdiyi icra başçılarını qəbul edərkən, onlara fəaliyyət planı verdi. Bu aktoru da dönə-dönə vurğulamaq lazımdır ki, dövlət başçısı hər bir rayonun sosial-iqtisadi coğrafiyasını yeni başçılara təqdim etməklə, əslində, onlara yol xəritəsi göstərir. Növbəti görüşdə də, bu, bir daha sərgiləndi. Daha dəqiq desək, yeni rayon başçıları vəzifələrinin konkret nələrdən ibarət olduğu barədə aydın mesajlar aldılar.

### "Korrupsiya və rüşvətxorluğa qarşı mübarizə Azərbaycanda ən ciddi formada aparılır və bunun təzahürləri göz qabağındadır"

Azərbaycan Prezidenti İlham Əliyev bu həqiqəti hələ də anlamayan rüşvətxorların olduğunu da deyib: "Əfsuslar olsun ki, hələ də bunu dərk etməyən insanlar var. Neftçala rayonunda aparılmış xüsusi əməliyyat onu bir daha göstərdi. Xalqın gözü önündə bu biabırçı mənzərə bir daha göstərdi ki, əfsuslar olsun, bizim bəzi yüksək ranqlı məmurlar, nəinki xalqın və dövlətin etimadını doğrultmurlar, onların hərəkətləri ikrah hissi doğurur. Bütün bu sübutlar göz qabağındadır, nümayiş etdirilən videogörüntülər, sadəcə olaraq, bəzi məqamları işıqlandırır. Ancaq Neftçala rayonunda rüşvətxorluq və korrupsiya sistem xarakter daşıyırdı, sistemli əsasda həll olunurdu və demək olar ki, rüşvətxorluq və korrupsiya bütün qurumları sarsıtmışdı".

Dövlət başçısı onu da vurğulayıb ki, belə rüşvətxorlar, belə tamahkar insanlar ən ağır cəzaya məhkum olmalıdırlar: "Təsəvvür edin, rayonun ən zəngin insanlarından biri Mərkəzi Rayon Xəstəxanasının baş həkimidir. Onun varidatı haqqında indi hüquq-mühafizə orqanları məlumat əldə ediblər. Bu adam nəyin hesabına varlanıb? Bu, biznesmendir? Yox. Bu, ixtiraçıdır? Yox. Buna böyük miras qalıb? Yox. Nəyin hesabına? Xəstələrin boğazından kəsilən pullar hesabına. Yazıq xəstələr məcbur olub bu tamahkar insanlara pul veriblər ki, öz sağlamlıqlarını təmin etsinlər. Ona görə, bu yolla gedən hər bir adam bilməlidir ki, bunun axırı olacaq".

Prezident İlham Əliyev Neftçalanın keçmiş icra başçısının biabırçı hərəkətlərinin xalqda nifrət hissi oyatdığını da deyib: "Kabinetdə müxtəlif adamlardan rüşvətin alınması biabırçı mənzərədir. Bir də ki, o adamın iş otağındakı hərəkətləri, onun əynindəki geyim, cinsdə, ev paltarında adam iş otağında ola bilər? Rəhbər iş otağında bu geyimdə hansı nümunə göstərir bütün məmurlara? Ona görə bu biabırçı kadrlar, əlbəttə, onu göstərir ki, bu insanın və buna oxşar insanların mənəvi deqradasiyası nə dərəcədədir. İndi operativ məlumat toplanılıb və toplanılır. Əlbəttə ki, mən istintaqa qarışmaq istəmirəm, istintaq hər şeyi özü göstərəcək. Son sözü məhkəmə deyəcək. Ancaq artıq aşkar olunan faktlar onu göstərir ki, Mərkəzi Rayon Xəstəxanasında bütün şöbələr baş həkimə aylıq haqq ödəyir. Məktəblərdə rüşvətxorluq kütləvi xarakter alır. Məktəb direktorlarından haqq tələb olunur, bələdiyyələrdən rüşvət tələb olunur, ictimai əsaslarla ödənişli iş yerlərinə insanlar cəlb edilmir, onların ödəniş kartları götürülür və icra başçısı tərəfindən o pullar çəkilir. Eyni zamanda, dövlətdən maaş alan və ödənişli ictimai yerlərdə işləməli olan həmin vətəndaşlar icra başçısına aid bir çox kommersiya obyektlərində və təsərrüfatlarda qul kimi işlədilir. Yəni bir daha demək istəyirəm ki, bu, mənəvi deqradasiyanın pik həddidir və bu, hər kəsə dərs olmalıdır.

### "Bəzi hallarda bəzi rayonlarda vəsait qoymaq istəyən investora süni əngəllər yaradılır""

Dövlət başçısı, həmçinin, yeni təyin olunan icra hakimiyyətləri başçılarına fəaliyyət planı da verib: "Sizin işiniz, əsasən, rayonda mövcud olan potensialı səfərbər edib, həm iqtisadi artımı təmin etmək, iş yerlərinin yaradılması ilə bağlı əməli addımlar atmaq və rəhbərlik edəcəyiniz rayonlara sərmayənin gətirilməsinə nail olmaqdır. Həm xarici investorları, həm də yerli investorları cəlb etmək üçün hər bir rayonun başçısı fəal işləməlidir. Bu tapşırıqları mən əvvəllər də vermişəm. Bəzi rayonlarda bu sahədə yaxşı nəticələr var, bəzi rayonlarda investisiya qoyuluşu zəifdir. Bunun obyektiv səbəbləri də ola bilər".

Dövlət başçısı bildirib ki, rayonların potensialı eyni deyil: "Buna baxmayaraq, hesab edirəm ki, Azərbaycanın müasir infrastruktur potensialını nəzərə alaraq, hər bir rayon investorlar üçün cəlbedici ola bilər. Sadəcə olaraq, yerli icra orqanlarının rəhbərləri oturub bu investisiyaları gözləməməlidirlər. Özləri fəal olmalıdırlar, özləri investorları tapmalıdırlar, onları inandırmalıdırlar və cəlb etməlidirlər. Bəzi hallarda bəzi rayonlarda investor vəsait qoymaq istəyir, amma əfsuslar olsun ki, onun qarşısında süni əngəllər törədilir. Yaxud da ki, yerli icra orqanları ona qarşı əsassız və qanunsuz tələblər irəli sürürlər. Ona görə, bu hallara qarşı çox ciddi mübarizə aparılmalıdır. Rayonlarda həm ictimai-siyasi ab-hava sağlam olmalıdır, ictimai münasibətlər sağlam zəmində qurulmalıdır və həm də xalqı narahat edən problemlər həll edilməlidir. O problemləri ki, müəyyən səbəblərə görə siz özünüz həll edə bilmirsiniz, gərək mərkəzi icra orqanlarına, Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, müvafiq nazirliklərə təkliflər verəsiniz və fəal olasınız".

Bir sözlə, bütün bunlar bir daha təsdiq edir ki, Azərbaycan dövləti daim öz vətəndaşına qayğı ilə yanaşır, onun rifahının yüksəldilməsini, sosial problemlərinin həllini prioritet vəzifə kimi görür və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir.

**RƏFİQƏ KAMALQIZI**

# YAP İdarə Heyətinin iclası keçirilib



***Martın 6-da Yeni Azərbaycan Partiyası İdarə Heyətinin növbəti iclası keçirilmişdir. İclasda YAP İdarə Heyətinin 2019-cu ilə dair illik hesabatı, Yeni Azərbaycan Partiyasının tərkibi, Gənclər Birliyinin və Qadınlar Şurası tərkibi haqqında 2019-cu ilə dair illik statistik hesabat, partiyanın 2019-cu il üzrə maliyyə hesabatı və İdarə Heyətinin 2020-ci ilin mart ayına dair iş planı müzakirə olunaraq qəbul edilmişdir.***

İdarə Heyətinin iclasında 2019-cu ildə cənab Prezident İlham Əliyevin bilavasitə rəhbərliyi altında cəmiyyət və dövlət həyatının bütün sahələrini əhatə edən uğurlu islahatların, Azərbaycanın iqtisadi və sosial həyatında dinamik inkişafın davam etdiyi xüsusi qeyd edilmişdir. Vurğulanmışdır ki, 2019-ci il müstəqil Azərbaycanın tarixində ən mühüm siyasi hadisələrdən biri ölkəmizdə Bələdiyyə seçkilərinin keçirilməsi və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 2020-ci il 9 fevral tarixinə təyin edilmiş Milli Məclisə növbədənkənar seçkilərə hazırlıq işlərinin başlanması olmuşdur.

Yeni Azərbaycan Partiyası 23 dekabr 2019-cu ildə keçirilən Bələdiyyə seçkilərinə hazırlıq işlərini və bütövlükdə seçki kampaniyasını çox uğurla başa çatdırmış, təşviqat kampaniyası çərçivəsində ölkənin hər bir yaşayış məntəqəsini əhatə etməklə seçicilərlə möhtəşəm görüşlər keçirilmişdir. 23 dekabr 2019-cu il Bələdiyyə seçkiləri Azərbaycan xalqının Yeni Azərbaycan Partiyasının Sədri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə inam və dəstəyinin növbəti və möhtəşəm təntənəsi oldu. Azərbaycan seçicilərinin mütləq əksəriyyəti Ulu öndər Heydər Əliyevin siyasi kursunun uğurlu davamına - Azərbaycanın dinamik inkişafına və qüdrətli gələcəyinə səs verdi. Nəticədə, Yeni Azərbaycan Partiyasının namizədləri seçicilərin böyük əksəriyyətinin dəstəyini qazanaraq 10432 bələdiyyə üzvü mandatına sahib oldu.

Yeni Azərbaycan Partiyası Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2020-ci il fevralın 9-da Milli Məclisə növbədənkənar seçkilərin keçirilməsi barədə 5 dekabr 2019-cu il tarixli Sərəncamından dərhal sonra seçki hazırlıqları prosesinə start vermiş, qısa zaman ərzində bütün yerli təşkilatlarda seçki qərargahları yaradılmış, seçki qanunvericiliyinin tələblərindən irəli gələn tədbirlər həyata keçirmişdir. Hesabat dövründə Yeni Azərbaycan Partiyası müxtəlif xarakterli bir sıra mühüm tədbirlər həyata keçirmiş, ölkənin ictimai-siyasi həyatında yaxından və fəal iştirakını davam etdirmişdir.

Yeni Azərbaycan Partiyası hesabat dövründə beynəlxalq əlaqələrinin daha da şaxələndirilməsi istiqamətində səylərini uğurla davam etdirmişdir. Müxtəlif ölkələrin aparıcı siyasi partiyaları və demokratik təsisatları ilə Yeni Azərbaycan Partiyası arasında mövcud münasibətlər daha da genişləndirilmiş, bu istiqamətdə mühüm görüşlər keçirilmişdir.

Hesabatda daha sonra qeyd edilmişdir ki, Yeni Azərbaycan Partiyasının sıralarının genişlənməsi ötən il ərzində də davam etmiş, bu dövr ərzində 26 min nəfərdən çox yeni üzv qəbul edilmiş və beləliklə, partiya üzvlərinin sayı 756 min nəfəri keçmişdir. Partiyaya daxil olanların sırasında gənclər və qadınlar üstünlük təşkil etmişdir.

İdarə Heyətinin iclasında YAP-ın 2019-cu ilə dair gəlirləri və xərcləri barədə hesabat dinlənilmişdir. Qeyd olunmuşdur ki, 2019-cu ildə Yeni Azərbaycan Partiyasının gəlirləri 10 668 284 manat olmuşdur. Bunun 9 309 025 manatını üzvlük haqları, 1 359 259 manatını büdcədən siyasi partiyalara ayrılan dövlət dəstəyindən Yeni Azərbaycan Partiyasına düşən pay təşkil etmişdir.

Yeni Azərbaycan Partiyasının hesabına daxil olan maliyyə vəsaitinin 5 307 213 manatı partiyanın İcra Katibliyinin və yerli təşkilatlarının əməkdaşlarının əmək haqqının ödənilməsinə, 884 663 manatı partiya və onun yerli təşkilatlarının, gənclər və qadınlar təşkilatlarının keçirdiyi tədbirlərin maliyyələşməsinə, xeyriyyə aksiyalarına, 91 515 manatı ezamiyyə xərclərinə, 163 376 manatı nəqliyyat vasitələrinin alınmasına, 281 053 manatı mebel və ofis avadanlıqlarının alınmasına, 214 214 manatı təmir işlərinə, 481 232 manatı kommunal və təsərrüfat xərclərinə, 300 908 manatı yanacaq və avtomobillərə xidmət işlərinə, 75 862 manatı bank xidmətinə, 57 607 manatı dəftərxana xərclərinə, 49 790 manatı çap işlərinə, 234 171 manatı kredit ödənişinə, 270 194 manatı isə sair xərclərə sərf edilmişdir.

## XİN: “Bu cinayətə görə tam məsuliyyət işğalçı ölkə Ermənistanın üzərindədir”



Martın 5-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Qazax rayonu istiqamətində Ermənistan silahlı qüvvələri atəşkəs rejimini növbəti dəfə kobud şəkildə pozub. Düşmən qüvvələrin snayperdən açdığı atəş nəticəsində Qazax rayonu Quşçu Ayrım kəndi yaxınlığındakı sərhəd döyüş məntəqəsindəki sərhədçi əsgərimiz Orxan Nazim oğlu Paşazadə qətlə yetirilib. Baş verən bu qanlı insident məqsədyönlü təxribat xarakteri daşıyır və bu cinayətə görə tam məsuliyyət işğalçı ölkə Ermənistanın üzərindədir.

AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin bəyanatında deyilir. Bəyanatda qeyd edilir ki, Azərbaycanın beynəlxalq tanınmış sərhədlərini qoruyan hərbi qulluqçumuzun qətlə yetirilməsi işğalçı Ermənistanın münaqişənin sülh yolu ilə həlli çağırışlarının yalan və riyakarlıqdan başqa bir şey olmadığını açıq şəkildə nümayiş etdirir. Məhz Ermənistanın hərbi-siyasi rəhbərliyinin bu kimi cinayətkar və dağıdıcı fəaliyyəti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həllinə və beləliklə də ATƏT-in Minsk Qrupunun həmsədrləri simasında beynəlxalq ictimaiyyətin səylərinə birbaşa manea törədir. Allah şəhidimizə rəhmət eləsin.

## DSX: “Ermənistan ordusu dövlət sərhədində təxribat törədib”

Martın 6-da Ermənistan mətbuatında Azərbaycan-Ermənistan dövlət sərhədinin Qazax rayonu istiqamətində Azərbaycan tərəfinin diversiya keçirməsi və nəticədə Ermənistan silahlı qüvvələrinin 1 nəfər hərbi qulluqçusunun yaralanması barədə məlumatlar yayılıb. Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, DSX-nin hərbi qulluqçuları tərəfindən diversiya keçirilməsi barədə məlumat həqiqətə uyğun deyil və reallığı əks etdirmir.

Martın 6-da səhər saatlarından başlamaqla Qazax rayonunun Cəfərli kəndi istiqamətindəki sərhəd döyüş məntəqələrimiz Ermənistanın İcevan rayonunun Sevkar və Sarıquyuq kəndləri yaxınlığında yerləşən Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən iriçaplı silahlardan və snayper tüfənglərindən intensiv atəşə tutulub. Düşmən təxribatının qarşısı alınıb, sərhəd döyüş məntəqələrimizə qarşı atəşin açıldığı Ermənistan silahlı qüvvələrinin döyüş mövqeləri cavab atəşi ilə susdurulub.

## Azərbaycanın Baş Naziri ukraynalı həmkarını təbrik edib



Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov Ukraynanın Baş Naziri təyin edilməsi münasibətilə Denis Şmıqala təbrik məktubu göndərib. Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, məktubda deyilir: “Ukraynanın Baş Naziri vəzifəsinə təyin olunmağınız münasibətilə sizi səmimi qəlbdən təbrik edirəm. Azərbaycan ilə Ukrayna arasındakı ənənəvi dostluq əlaqələri, qarşılıqlı faydalı əməkdaşlığımız dövlətlərarası münasibətlərimizin inkişafı üçün möhkəm bünövrədir. İkitərəfli əlaqələrimizin, strateji əməkdaşlığımızın daha da inkişaf etdirilməsi və möhkəmləndirilməsi istiqamətində birgə addımlar atacağımıza ümidvar olduğumu bildirirəm. Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Ukrayna xalqının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar arzulayıram”.

## “Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələr yeni formatda davam etdiriləcək”



***Azərbaycan hökuməti ilə Avropa İttifaqı arasında aparılan danışıqların nəticəsi olaraq tərəflər əlaqələrini yeni formatda davam etdirəcəklər.***

AZƏRTAC xəbər verir ki, bu sözləri Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas 8 mart - Beynəlxalq Qadınlar Günü münasibətilə martın 6-da keçirilən tədbirdə deyib. Aİ-nin nümayəndəsi bildirib ki, yeni formatı müəyyən edən saziş üzərində iş gedir.

# Azərbaycan qadını cəmiyyətdə böyük nüfuza malik olduğunu əməllərilə təsdiqləyib



## *Prezident İlham Əliyev: "Qadınlarımızın hazırkı ictimai mövqeyi və işgüzar nüfuzu vahid məfkurə ətrafında birləşmiş cəmiyyətimizin mühüm reallıqlarından biridir"*

8 Mart Beynəlxalq Qadınlar Günüdür. Tarixə nəzər salsaq, görərik ki, qadın hərəkatının tarixi 1857-ci ildə Nyu-York qadınlarının 12 saatlıq iş gününə etirazı ilə başlayıb. 1910-cu ildə alman sosialist qadın Klara Setkin 8 martın Dünya Qadınlar Günü kimi qeyd edilməsinə nail olub. Dünya ölkələrində olduğu kimi, 8 Mart Beynəlxalq Qadınlar Günü Azərbaycanda da geniş qeyd olunur.

Azərbaycan qadını bütün dövrlərdə gözəllik örnəyi olub. Bunu hər şeyi öz yaddaşında qoruyub-saxlayan tarixi salnamələr deyir. Ağıllı, cəsur sələflərimiz ən çətin məqamlarda belə ayıq-sayıqlığı, çevikliyi və düzgün qərar qəbul etmək bacarığı ilə hamını heyrətləndiriblər. Tariximizin ayrı-ayrı dövrlərində yaşayıb fəaliyyət göstərmiş qadınlar müdrikliyi və işgüzarlığı ilə keçmişimizə parlaq səhifələr yazıblar. Sözünün bütövlüyü, ictimai fəallığı, zəhməti, isməti və zəkası ilə.

Ölkənin ictimai-siyasi və mədəni həyatında aparıcı qüvvəyə malik olan Azərbaycan qadını cəmiyyətdə böyük nüfuza malik olduğunu əməllərilə təsdiqləyib. Azərbaycan Prezidenti İlham Əliyevin 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrikində bildirilir ki, Azərbaycan qadınları tariximizin hər bir dövründə cəmiyyətin mənəvi dayağı olmuşlar. Xalqımızın əsrlər boyu təşəkkül tapmış zəngin milli-mədəni sərvətlərinin hifz edilməsində və ali bəşəri keyfiyyətlərin nəsildən-nəslə ötürülməsində onların misilsiz xidmətləri vardır: "Yeni cəmiyyət quruculuğu şəraitində ictimai fəallıqlarını gücləndirərək sosial-mədəni həyatda yaxından iştirak etmələri Azərbaycan qadınlarının yüksək intellektual səviyyəsinin aydın təzahürüdür. Azərbaycanın dövlət müstəqilliyini bərpasından sonra da onlar sosial fəallıqları ilə seçilmiş, təhsil, səhiyyə, elm və mədəniyyət sahələrində çoxsaylı nailiyyətlər qazanmışlar. Qloballaşma dalğasının ənənəvi dəyərlər sistemini sürəkli dəyişikliklərə məruz qoyduğu bir vaxtda xanımlarımız milliliklə müasirliyin vəhdətini daxili aləmlərinin ayrılmaz tərkib hissəsinə çevirərək, nəsillərin varisliyi prinsipini qoruyur və ədəbi-ictimai, elmi-mədəni fikir salnaməmizdə iz qoymuş maarifpərvər sələflərinin yolunu şərəflə davam etdirirlər".

Prezident İlham Əliyev təbrikində respublikamızda təşəbbüskar qadınlarımızın öz yaradıcı potensiallarını gerçəkləşdirmələri üçün əlverişli zəmin mövcud olduğunu bildirib: "Dövlətçiliyimizin əsaslarının möhkəmləndirilməsinə yönəlmiş fəaliyyətləri ilə onlar yeniləşən ölkəmizin ahəngdar yüksəlişinin təmin edilməsində əhəmiyyətli rol oynayırlar. Qadınlarımızın hazırkı ictimai mövqeyi və işgüzar nüfuzu vahid məfkurə ətrafında birləşmiş cəmiyyətimizin mühüm reallıqlarından biridir". Prezident Azərbaycan qadınının, hər zaman olduğu kimi, bundan sonra da övladlarımızın milli-mənəvi dəyərlərə hörmət, Vətənə məhəbbət ruhunda tərbiyəsinə böyük diqqət yetirəcəyinə və Azərbaycanın inkişaf salnaməsinə parlaq səhifələr yazacaqlarnana əminliyini ifadə edib.

Dövlət müstəqilliyimizin bərpasından sonra Azərbaycan qadını milli dövlət quruculuğu prosesinin fəal iştirakçısına çevrildi. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan qadın siyasəti nəticəsində Azərbaycan qadını elm və təhsil, səhiyyə və mədəniyyət, eləcə də, digər sahələrdə qazandığı uğurları ilə öz nüfuzunu ilbəil artırmağa nail oldu.

Bu, bir həqiqətdir ki, 2000-ci ilin mart ayının 6-da Ulu Öndər Heydər Əliyevin "Azərbaycan Respublikasında dövlət-qadın siyasətinin həyata keçirilməsi haqqında" Fərmanı ölkədə qadın siyasətinin gerçəkləşməsinə xidmət edən məsələlərdəndir. Təqdirəlayiq haldır ki, həmin sənəd 2001-ci ildə bütün dünya dövlətlərinə paylanılıb və bu sahədə ən yaxşı sənəd kimi qəbul olunub.

### ZİYALILIĞIN ALİ ZİRVƏSİ

Bütün bunlarla yanaşı, Azərbaycanda qadın, ilk növbədə, ailə ocağının qoruyucusudur. Azərbaycan qadınına milli mənliyimizdə dərin kök salmış ənənələr məxsusdur ki, bu amil özünü tarix boyu göstərib. Nəciblik, xeyirxahlıq, fədakarlıq, mətinlik, qayğıkeşlik və insanpərvərlik. Bu keyfiyyətlər Azərbaycan qadınına xas xüsusiyyətlərdir. Zərifliyi və gözəlliyi ilə seçilən Azərbaycan qadını milli dövlət quruculuğu prosesinin fəal iştirakçısına çevrilib, ölkəmizin sosial-iqtisadi, intellektual-mədəni potensialının artırılması üçün dəyərli töhfələr verir. Azərbaycan qadınının əzəməti bu gün dünya ictimaiyyətinə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın simasında daha qabarıq təqdim olunur. Müasir dövrümüzdə ziyalılığın ali zirvəsində olan ölkənin Birinci Xanımı, YUNESKO və İSESKO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyevanın Azərbaycan üçün gördüyü işlər ölkəmizin ictimai-siyasi və mədəni həyatında danılmaz amillərdir. Yaşadığımız qloballaşma dövründə, Azərbaycanın dünyaya inteqrasiya etdiyi bir zamanda, milli-mənəvi dəyərlərin üzə çıxarılması, Azərbaycanın bir dövlət olaraq, məxsusiliyinin dünyəviləşməsi istiqamətində Mehriban xanım Əliyevanın gördüyü işlər tarixin bu günü üçün deyil, əsrlərin yaddaşında iz buraxacaq hadisələrlə bağlıdır. Belə ki, Mehriban xanım Əliyeva milli-mənəvi dəyərlərin qorunması, mədəniyyətimizin geniş təbliği, elm, təhsil, səhiyyə və idmanın inkişafını təmin edən layihələrin dəstəklənməsi, uşaq və gənclərin sağlam, milli-mənəvi dəyərlərə sadiq, hərtərəfli biliklərə malik vətəndaş kimi yetişməsi və Azərbaycanın beynəlxalq nüfuzunun artmasına yönələn tədbirləri həyata keçirməklə, böyük layihələrin müəllifinə çevrilib.

### PREZİDENTİN SƏRƏNCAMI İLƏ TƏLTİF OLUNAN BİR QRUP QADIN İKİQAT BAYRAM SEVİNCİNİ YAŞADI

Azərbaycan qadını öz əməli fəaliyyəti, dəyərləri ilə yüksəkdə dayanır və bu dəyərləri müqabilində alnıaçıq və fəxrlə 8 Mart Beynəlxalq Qadınlar Gününü qeyd edir. Hər zaman dövlətin diqqəti ilə əhatə olunan Azərbaycan qadını 8 Mart Beynəlxalq Qadınlar Günü ərəfəsində də bu qayğını bir daha üzərlərində hiss etmiş oldu. Ölkə başçısının Sərəncamı ilə 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycanın ictimai-mədəni həyatında səmərəli fəaliyyətlərinə görə, bir qrup qadın fəxri adlara layiq görülüblər. "Tərəqqi", "Əməkdar müəllim", "Əməkdar mədəniyyət işçisi", "Əməkdar həkim" kimi fəxri adlara layiq görülən qadınlar, göründüyü kimi, müxtəlif sahələrdə çalışır, öz peşələri ilə xalqa xidmət edirlər. Bu, dövlətin Azərbaycan xanımına verdiyi qiymətin daha bir bariz nümunəsidir. Bu diqqəti üzərində görən Azərbaycan qadını öz işinin - peşəsinin məsuliyyətini daha çox dərk edəcəkdir.

Heç şübhəsiz, Azərbaycan qadınları ölkəmizin inkişafı, qlobal dünyada mədəni-mənəvi zənginliklərimizin yaşadılması, gənc nəslin milli məfkurə və dövlətçilik ideallarına sədaqət ruhunda tərbiyəsi üçün bundan sonra da fəallıq nümayiş etdirəcək.

Bayramınız mübarək olsun, ƏZİZ QADINLAR!

**ZÜMRÜD BAYRAMOVA**

# Prezidentin ictimai dərsi və mühüm mesajı

## *Prezident İlham Əliyev: "Mənə kreslo lazım deyil, adi stul verin... Belə şeylərə qətiyyən yol vermək olmaz"*




***Prezident İlham Əliyevin regionlara səfəri zamanı Tovuz rayonunda "ASAN XİDMƏT"-in könüllü gəncləri ilə görüşü zamanı onun üçün hazırlanmış kreslosunu adi stulla əvəzlənməsi göstərişini verməsi və buna irad tutması hadisəsi bizləri bir daha düşünməyə və nəticələr çıxarmağa vadar etdi. Nə oldu bizi düşündürən?***

Bu, ilk növbədə, ölkə başçısının daim xalqın içində olmasının və özünü hər zaman adi vətəndaşla eyni müstəvidə görməsinin nümunəsidir.

### Mesaj oldu ki...

Ölkə Prezidentinin sözügedən iradını, məhz gənclərin qarşısında bildirməsi digər amilləri ortaya çıxarır - həmin gənclər ki, fəaliyyətlərini könüllülük prinsipi üzərində qurmaqla, gələcəklərini müəyyən edirlərsə, onlar sabahın hər hansı müəssisə, şirkət və dövlət qurumu rəhbəri olacaqlarsa, bu hadisəni xatırlayıb vəzifələrini, yüksək mövqelərini deyil, məhz xalqın xidmətçisi olduqlarını unutmamalıdırlar. Bu, həm də mükəmməl bir ictimai dərs və yüksək vəzifəli məmurlara göndərilən mühüm bir mesaj oldu. Mesaj oldu ki, əgər kimsə hər hansı vəzifəyə sahibdirsə, hətta əyləşdiyi kreslosu qarşısında oturanın stulundan yüksəkdirsə, həmin kimsə heç də qarşısında oturan vətəndaşdan yüksək deyil.

### Əgər bu gün bizlər xalq-hakimiyyət və hakimiyyət-xalq prizmasından yanaşmalar ediriksə...

Dövlət başçısının bu addımı həm də Onun sadəliyindən, xalqa, vətəndaşa, hətta ayrı-ayrı insanlara göstərdiyi fərdi diqqətindən, qayğısından doğan xoş, qürurverici və fərəhləndirici reallıqdır. Əgər bu gün bizlər xalq-hakimiyyət və hakimiyyət-xalq prizmasından yanaşmalar ediriksə, bu tandem üzərində yazılarla, məqalələrlə çıxışlar ediriksə, oxucu auditoriyası qarşısında fikirlərimizi bölüşürüksə, demək, heç də yanılmamışıq. Çünki xalq-hakimiyyət və hakimiyyət-xalq gerçəkliyi bu dəfə də, hər zaman olduğu kimi, Prezidentimiz tərəfindən, yadda qalan iradı ilə yanaşı, həm də tam şəkildə sübuta yetirildi.

Əslində, son zamanlar ölkədə vüsət alan dinamik və çoxşaxəli islahatlar fonunda həm də kadr islahatlarının həyata keçirilməsi, xüsusilə, işlərində ciddi səhvlərə və nöqsanlara yol verən məmurların cəzalandırılma faktları arxasında da Prezident İlham Əliyevin xalqın yanında olması amili dayanmaqdadır.

### Məmur heç vaxt vətəndaşa yuxarıdan aşağı baxmamalıdır!

Misal üçün, biz unutmamışıq ki, dövlət başçımız, hətta öz doğum günlərini sadə vətəndaşların, qaçqın və məcburi köçkünlərin yanında, eləcə də, cəbhəyanı bölgələrdə, ucqar dağ kəndlərində keçirir. Bu, ona mesajdır ki, əgər vəzifələrində, kreslolarında oturmaqla xalqın marağına cavab verməyən işlərlə məşğul olan vəzifəli şəxslər getdikləri yanlış yollardan geri dönsünlər, daim xalqın, vətəndaşın yanında olsunlar, heç kimə yuxarıdan aşağı baxmasınlar.

Ölkəmizin başçısı müəyyən olunmuş dövlət strukturlarına təyin elədiyi insanları vəzifələrə göndərərkən də, onların qarşısında, məhz bu kimi məsələləri qaldırır, tələb və tövsiyələrini irəli sürür.

Beləliklə, "Mənə kreslo lazım deyil, adi stul verin... Belə şeylərə qətiyyən yol vermək olmaz" deyə irad bildirən Prezidentimiz, sözün əsl mənasında, çox böyük, vacib və əhəmiyyətli ismarıc yollamış oldu və düşünürük ki, həmin ismarıcı dərk və qəbul etməli olanlar bunu etdilər. Çünki xalqının və dövlətinin bir nömrəli xidmətçisi olduğunu vurğulayan Cənab İlham Əliyev həyata keçirdiyi mütərəqqi, qətiyyətli və örnək siyasəti ilə sonsuz xalq sevgisinə və dəstəyinə layiq olan PREZİDENTDİR!

*Rövşən RƏSULOV*

# Azərbaycanda 265 min qadın sahibkarlıq fəaliyyəti ilə məşğuldur



Ölkəmizdə qadınların hüquqlarının qorunması, azadlıqlarının təmin edilməsi üçün onların iqtisadi asılılıqdan azad olmaları mühüm şərtdir. Qadın sahibkarlığının inkişaf etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycanda 265 min qadın sahibkarlıq fəaliyyəti ilə məşğuldur. AZƏRTAC xəbər verir ki, bu sözləri Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (AQUPDK) Hüquq şöbəsinin müdiri Taliyə İbrahimova martın 6-da Beynəlxalq Qadınlar Günü münasibətilə keçirilən tədbirdə deyib. Dövlət Komitəsinin nümayəndəsi bildirib ki, AQUPDK-nın Avropa İttifaqı, eləcə də BMT ilə birgə apardığı layihələr çərçivəsində ölkəmizdə qadın sahibkarlığı inkişaf edərək yeni mərhələyə qədəm qoyub.

# ABŞ-ın Aydaho ştatı Azərbaycan ilə əməkdaşlığın inkişaf etdirilməsində maraqlıdır



Azərbaycanın Los-Ancelesdəki baş konsulu Nəsimi Ağayev martın 5-də ABŞ-ın Aydaho ştatının qubernatoru Brad Little ilə görüşüb.

Ölkəmizin Los-Ancelesdəki Baş Konsulluğundan bildiriblər ki, görüşdə Azərbaycan ilə Aydaho ştatı arasında müxtəlif sahələrdə, xüsusilə kənd təsərrüfatı, turizm, informasiya texnologiyaları, nəqliyyat, elm, təhsil və mədəniyyət üzrə əməkdaşlıq imkanları müzakirə edilib.

Müstəqilliyinin bərpasından sonra Azərbaycanın keçdiyi inkişaf yolu barədə məlumat verən baş konsul N.Ağayev Aydaho ştatı ilə ölkəmizin münasibətlərinin daha da inkişafı üçün böyük potensialın olduğunu qeyd edib.

Diplomat, həmçinin Azərbaycanın qədim tolerantlıq və multikulturalizm ənənələri barədə söz açıb, bu gün ölkəmizdə müxtəlif dinlərin və millətlərin nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşadıqlarını diqqətə çatdırıb. Baş konsul son dövrlərdə dünyanın müxtəlif yerlərində artan dini-etnik dözümsüzlük və zorakılıqlar fonunda Azərbaycanın uğurlu tolerantlıq modeli nümayiş etdirdiyini, bu modelin beynəlxalq ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılandığını vurğulayıb.

Öz növbəsində, qubernator Brad Little keçirilən görüşdən məmnunluq duyduğunu ifadə edərək, Azərbaycan ilə əməkdaşlığın inkişaf etdirilməsində maraqlı olduqlarını bildirib.

Görüşdə, həmçinin Aydaho ştatı Senatının sədri Brent Hill, Nümayəndələr Palatasında çoxluğun rəhbəri Mike Moyle və onun müavini Jason Monks, ştatın Kənd Təsərrüfatı Departamentinin direktoru Celia Gould, Ticarət Departamentinin direktoru Tom Kealey və digər rəsmilər iştirak ediblər. Qeyd edək ki, səfər müddətində baş konsul N.Ağayev, həmçinin Aydaho ştatının paytaxtı Boise şəhərinin meri Lauren McNeal, müxtəlif ştatların senatorları və digər rəsmi şəxslərlə də görüşlər keçirib.

# "Tokio-2020" Yay Olimpiya Oyunlarının açılış mərasimində Azərbaycanı iki bayraqdar təmsil edəcək



Beynəlxalq Olimpiya Komitəsinin (BOK) İcraiyyə Komitəsinin "Tokio -2020" Yay Olimpiya Oyunlarının açılışında hər ölkədən 2 bayraqdarın olması haqda qərarını Azərbaycan Milli Olimpiya Komitəsi (MOK) müsbət qiymətləndirir. BOK gender bərabərliyinin tənzimlənməsi məqsədilə "Tokio-2020"nin açılış mərasimində kişi və qadın bayraqdarın olmasının vacibliyini vurğulayıb və bu məqsədlə Milli Olimpiya komitələrinə müraciət edib.

MOK-un mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu haqda BOK-un İcraiyyə Komitəsinin qərarını şərh edən MOK-un vitse -prezidenti Çingiz Hüseynzadə bildirib.

Ç.Hüseynzadənin sözlərinə görə, Olimpiya Oyunlarında bayraqdar statusu qazanmaq idmançılar üçün çox əhəmiyyətlidir. Təbii ki, BOK-un bu tarixi qərarını dəstəkləyən Azərbaycan, Yay Olimpiya Oyunlarında ölkənin ilk qadın bayraqdarının seçilməsinə xüsusi həssaslıqla yanaşacaq.

# Azərbaycan qadınları ölkəmizin inkişafı prosesində fəal iştirak edirlər



## Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü Bahar Muradovanın yap.org.az-a müsahibəsi

***- Bahar xanım, məlumdur ki, 8 mart tarixi hər il dünyanın bir çox ölkəsində, o cümlədən Azərbaycanda Beynəlxalq Qadınlar Günü kimi qeyd olunur. Azərbaycan qadınları bu bayramı hansı əhval-ruhiyyədə qarşılayırlar?***

- Ölkəmizdə 8 Mart Beynəlxalq Qadınlar Günü vacib bayramlardan biri kimi dəyərləndirilir. Əvvəla ona görə ki, dünyanın əksər ölkələrində qeyd olunan 8 Mart Beynəlxalq Qadınlar Günü təkcə qadınların deyil, həm də qadınları təbrik edən kişilərin bayramıdır. Biz bilirik ki, istənilən bayram ərəfəsində təbrik ediləndən daha çox təbrik edən sevinir. Çünki kiməsə sevinc bəxş etmək, ona məxsus olan günü qeyd etmək, onun sevincini bölüşmək və bu günün əhval-ruhiyyəsini daha da artırmaqda iştirak etmək hər kəsə zövq verən işdir. Xüsusilə də, söhbət qadınlardan və onların özəl günlərindən gedirsə... Azərbaycanda bu bayram həmişə vacib dəyərləndirilir, müxtəlif formada bu gün üçün hazırlıq aparılır, çoxsaylı tədbirlər keçirilir. Bunlar həm ictimai, həm də siyasi məzmunlu tədbirlərdir.

Eyni zamanda, hər evdə, ailədə qadın varsa, bu gün qeyd olunur, hər kəs bayram əhval-ruhiyyəsini bölüşür. Bu dəfə də belə olacaq. Baxmayaraq ki, dünyada müxtəlif ictimai-siyasi və hərbi xarakterli narahatedici proseslər gedir. Eləcə də, insan sağlamlığı ilə bağlı ciddi problemlərin yaşandığı zamanda düşünmək olardı ki, bu dəfə bayram çoxlarını maraqlandırmayacaq. Amma biz görürük ki, get-gedə bayram əhval-ruhiyyəsi artır, hər kəs bu bayramı layiqincə qeyd etməyə çalışır. Düşünürəm ki, bu il də istisna olmayacaq. Azərbaycanda bu bayram layiqincə qeyd ediləcək.

***- Əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş dövlət qadın siyasəti bu gün Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Sizcə, ölkəmizdə dövlət qadın siyasətinin əsas səciyyəvi xüsusiyyətləri nədən ibarətdir?***

- Bilirsiniz, biz qadınla bağlı bütün ictimai, siyasi, sosial-mədəni, humanitar-mənəvi və s. məsələləri göz önünə gətirsək, görərik ki, bu yalnız qadınlara aid deyil. Bu, qadınların bərabərhüquqlu və çox vacib üzvü olduğu dövlət, cəmiyyət və insan həyatının tam özüdür. Zənnimcə, qadınla bağlı olduğu deyilən məsələlər bütövlükdə cəmiyyətin və dövlətin, o cümlədən insanlığın məsələləridir. Ona görə də, biz mövzuya məhz bu kontekstdə yanaşmalı, dəyərləndirməli və nəticələr çıxarmalıyıq.

Vurğulamaq lazımdır ki, Ümummilli Liderimiz Heydər Əliyev də qadın amilinə, onun ən müxtəlif xarakterli roluna məhz bu aspektdən yanaşırdı. Qadına dövlət həyatının vacib iştirakçısı, ictimai-siyasi proseslərin bərabərhüquqlu üzvü, milli-mənəvi dəyərlərimizin və ailə ocağının qoruyucusu, demək olar ki, inkişafın bərabərhüquqlu tərəfdaşı kimi yanaşılırdı. Bu nöqteyi-nəzərdən, qadın amili Azərbaycanda əvvəllər də tarixən ciddi dəyərləndirilib və Ulu Öndər Heydər Əliyevin hakimiyyətdə olduğu zamanlarda bu məsələyə xüsusi diqqət yetirilib. Bir tərəfdən, cəmiyyət həyatında qadın iştirakçılığının və rolunun artırılması ilə bağlı çoxsaylı addımlar atılıb, digər tərəfdən isə qadına münasibətin müasir standartlara uyğunlaşdırılması baxımından çox vacib işlər görülüb. Prezidentimiz cənab İlham Əliyevin ölkəmizə rəhbərliyi dönəmində isə bu sahə ilə bağlı işlər daha böyük vüsət almış, dövlət qadın və ailə siyasəti daha yüksək standartlar səviyyəsinə qaldırılmışdır. Bu mənada, hesab edirəm ki, biz bu məsələni ümumi inkişafımızın əsas tərkib hissəsi, aparıcı istiqaməti kimi qəbul etməli və dəyərləndirməliyik.

***- Sizcə, Azərbaycan qadınlarının cəmiyyət həyatında rolu, onların ictimai-siyasi proseslərdə fəallığı qaneedici səviyyədədirmi?***

- Bu bir həqiqətdir ki, qadınlar həyatımızın bir parçası, dövlətimizin vacib istinadgahı və dayaqlarından biridir. Odur ki, tarixən üzərimizə qoyulmuş rol, dövlətimizin müəyyən etdiyi prioritetlər, üzərimizə götürdüyümüz beynəlxalq öhdəliklər və qabaqcıl dünya təcrübəsinə istinad edərək həyata keçirilən işlər getdikcə qadınların dövlət və cəmiyyət həyatında rolunu daha da artırmaqdadır.

Bilirsiniz ki, bu yaxınlarda həyatımızın iki böyük siyasi kampaniyası başa çatıb. 2019-cu ilin dekabrında bələdiyyə, bu ilin fevral ayında isə parlament seçkiləri keçirilib. Bir-birinin ardınca keçirilən bu seçkilərdə siyasi dünyagörüşündən, ictimai mövqeyindən asılı olmayaraq ölkəmizin bütün qadınları fəal iştirak etmək imkanı qazanıblar. Əgər bələdiyyə seçkilərinə nəzər salsaq, 1999-cu ildə keçirilən ilk bələdiyyə seçkilərində qadınlar 4 faiz təmsil olunurdular. Amma son seçkidən sonra isə qadınların yerli seçkili orqanlarda iştirak səviyyəsi 39 faizə qədər yüksəlib. Bu, mühüm göstəricidir və qadınların ictimai-siyasi proseslərdə fəallığının nə qədər artdığını göstərir.

Dövlət müstəqilliyimiz bərpa olunduqdan sonra müstəqil Azərbaycanın Konstitusiyasına əsasən keçirilən parlament seçkilərində ən müxtəlif siyasi partiyaların, ictimai qurumların və ayrı-ayrı təbəqələrin nümayəndələri olan qadınlar fəal iştirak ediblər. Son seçkilər isə bu baxımdan xüsusilə vurğulanmalıdır. Bu seçkilərdə çoxsaylı qadınların namizədliyi irəli sürülmüşdü.

***- Yeni Azərbaycan Partiyasının qadınların cəmiyyət həyatının müxtəlif sahələrində fəal iştirakına göstərdiyi diqqət, bu istiqamətdə həyata keçirilən tədbirlər barədə nə deyə bilərsiniz?***

- Bilirsiniz ki, Yeni Azərbaycan Partiyası hər zaman qadın amilinə çox böyük diqqət yetirib. Bu seçki kampaniyasında da qadınların iştirakçılığının artırılması istiqamətində ən gözəl nümunəni partiyamız göstərdi və çoxsaylı qadın namizədlər irəli sürüldü. Hətta bəzi üzvlər öz fərdi qərarları ilə namizədliklərini irəli sürmüşdülər. Bu parlament seçkilərinə qadınların getdikcə artan marağının, eyni zamanda, siyasi partiyaların bu amili nə dərəcədə öz gündəlik fəaliyyətində üstün tutduğunun göstəricisidir. Bu baxımdan, Yeni Azərbaycan Partiyası bu günə qədər fərqli bir mövqe sərgiləyib və bu seçkilərdə də belə oldu. Uğur qazanan, parlamentə seçilən qadınların içərisində, əlbəttə ki, YAP üzvü olan qadınların sayı daha çoxdur.

Qeyd edim ki, seçkilərdə irəli sürülən qadın namizədlərdən 276 nəfər qeydə alınmışdı. Onlardan 22 nəfəri palament üzvü seçilib. Hesab edirəm ki, bu da kifayət qədər ciddi rəqəmdir. Mən də uzun illər parlamentin üzvü olmuşam və biz qadınlar sayımızın azlığına baxmayaraq, hər zaman potensialımızı ortaya qoymağa və digər qadınları da təmsil etdiyimizi düşünərək onların iştirakçılığını özümüzün fəaliyyətində daha çox əhatə etməyə çalışmışıq. Düşünürəm ki, bu dəfə də belə olacaq və bu qadınlar bütün Azərbaycan qadınlarını təmsil etdiklərini nəzərə alaraq onların bütün istək və arzularını, siyasi mövqelərini, iradələrini ifadə edəcəklər. Amma siyasi proseslər təkcə seçkilərlə bitmir, təyinatlı vəzifələrdə də çoxlu sayda qadınlar təmsil olunurlar. Elə sahələr var ki, orada qadınlar aparıcı rola malikdirlər. Bu təhsil, sosial və humanitar sferalardır. Bu gün həyatımızın digər sahələrində qadınlar getdikcə daha çox təmsil olunurlar. Onlar ölkəmizin iqtisadi, siyasi, sosial həyatına çox böyük töhfə verirlər, dəyərlərin formalaşmasında və inkişafında çox böyük rola malikdirlər.

Biz qadınlarımızın qazandıqları bütün uğurlarla fəxr edirik. Əlbəttə ki, ən çox qürur duyduğumuz, fərəh hissi ilə qeyd etdiyimiz bir amil də var ki, respublikamızın Birinci vitse-prezidenti, Yeni Azərbaycan Partiyasının Sədr müavini Mehriban xanım Əliyevanın bu qədər üstün mövqedə Azərbaycan qadınlarını çox böyük uğurla təmsil etməsidir. Mehriban xanım Əliyeva səmərəli fəaliyyəti ilə ayrı-ayrı sahələrdə qarşıya qoyulmuş məqsədlərin gerçəkləşdirilməsinə, strateji əhəmiyyətli vəzifələrin reallaşdırılmasına müstəsna töhfələr verir. Təsadüfi deyil ki, onun fəaliyyəti xalqımız tərəfindən böyük rəğbətlə qarşılanmaqla yanaşı, beynəlxalq miqyasda da olduqca yüksək qiymətləndirilir. Digər tərəfdən, Azərbaycan qadınlarının ölkənin ictimai-siyasi həyatında aktiv iştiraka marağının artmasında, cəmiyyətimizdə qadın fəallığı ənənələrinin güclənməsində Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinin əvəzedilməz rolu var.

***- Bahar xanım, ölkəmizdə qadın hüquqları qanunvericilik səviyyəsində necə qorunur?***

- Bilirsiniz, biz ayrılıqda qadın hüquqlarını söhbət mövzusu kimi müzakirəyə gətirə bilərik. Amma qeyd etməliyəm ki, bütövlükdə ölkəmizdə insan hüquqları yüksək səviyyədə qorunur və biz bu yöndə bütün beynəlxalq konvensiyalara qoşulmuşuq, bundan irəli gələn öhdəlikləri yerinə yetirməkdəyik. Azərbaycanda insan hüquqlarının əlçatanlığının və təmin olunmasının müyəssərliyinin artırılması istiqamətində Konstitusiyamız, eyni zamanda, ayrı-ayrı sahələr üzrə qanunlarımız kifayət qədər ciddi əsaslar yaradır ki, insan hüquqları bütün aspektlərdə qorunsun. Əlbəttə ki, bunun içərisində qadın hüquqları da var. Amma qadınların iştirakçılığının artırılması ilə bağlı ayrı-ayrı konvensiyalar da var. Biz bundan da irəli gələn vəzifələrimizi yerinə yetirməkdəyik.

Qeyd etməliyəm ki, Azərbaycanda qadın hüquqlarının qorunmasının qürurverici tarixi keçmişi də var. Bilirsiniz ki, 2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi qeyd olundu. Onunla eyni vaxtda Azərbaycan qadınlarının seçki hüququ əldə etməsinin də 100 illiyi qeyd edildi. Bu, dünya ölkələri içərisində az rast gələnən nümunədir. Hansı ki, Azərbaycan müsəlman şərqinə məxsus bir ölkədir. Və bir çox ilklər də məhz Azərbaycanda əldə olunub. Həm demokratik cümhuriyyət qurmaq, həm də ayrı-ayrı sahələr üzrə inkişafa, uğura imza atmaq baxımından ən böyük nailiyyətlərimizdən biri qadınların seçmək və seçilmək hüququ əldə etməsi, ictimai-siyasi həyatda təmsilçilik üçün kişilərlə bərabər hüquqlar qazanmasıdır.

Azərbaycanda bütün qanunlar ayrı-ayrı sahələrdə qadınlara qarşı başqa ölkələrdəki kimi kvota qoymaqla müəyyən olunmur, hüquqların reallaşmasında bərabər imkanların yaranması baxımından xarakterizə olunur. Odur ki, ölkəmizdə qadınların əldə etdiyi uğurlar möhkəm əsaslara söykənir. Çünki onlar hansısa bir güzəşt nəticəsində deyil, bərabər hüquqlar müstəvisində bu nailiyyətləri əldə ediblər. Hesab edirəm ki, bizim qazandığımız uğurlar gələcək üçün də böyük perspektivlər vəd edir. Azərbaycanda bütün qanunlar imkan verir ki, qadınlar iqtisadi, siyasi, sosial, humanitar və digər sahələrdə olan hüquqlarını kişilərlə bərabər reallaşdıra bilsinlər və nailiyyətlər qazansınlar.

# Tibbi maska və spirt çatışmazlığı, yoxsa bəzi şəxslərin "oyunbazlığı"?

**ARAŞDIRMA**

***Son günlər koronavirus təhlükəsi əczaxanalarda qoruyucu və dezinfeksiya vasitələrinin qıtlığına və bahalaşmaya səbəb olub. Prezident İlham Əliyev Goranboy rayonuna səfəri zamanı Rayon Mərkəzi Xəstəxanasının açılışında da bildirdi ki, ölkədə kifayət qədər maska ehtiyatı olmasına baxmayaraq, öz tamahını təmin etmək üçün bəd əməllərə üz tutan vətəndaşlar var ki, onlara qarşı ən ciddi cəza tədbirləri tətbiq ediləcək. Paytaxt sakinləri hələ də əczaxanalarda spirt və tibbi maska əldə etməkdə çətinlik çəkdiklərini bildirdilər.***








**Paytaxt sakini Yaqub Mədətov** söyləyib ki, hər hansı məhsula tələbat artan zaman bəzi işbazların vəziyyətdən sui-istifadə etməsi təəssüfedicidir: "Həmin şəxslər öz mənafelərini güdərək qiymətləri bilərəkdən bahalaşdırır ki, bu da vətəndaşlar arasında narazılığa gətirib çıxarır. Çox təəssüf ki, yaranan vəziyyətdən sui-istifadə edənlər, xalqın mənafeyini düşünmürlər. Koronavirus bütün dünya üçün bir bəladır. Belə bir vəziyyətdə hər kəs bir-birinə kömək etməlidir. Amma bəziləri nədənsə spirt və tibbi maskanın satışının qarşısını alırlar. Depolardan soruşduqda, kifayət qədər qoruyucu və dezinfeksiya vasitələrinin olduğunu deyirlər. Lakin əczaxanalardan soruşduqda ya olmadığını, ya da az sayda daha baha qiymətə satırlar".

Sözügedən vasitələri əldə etməkdə çətinlik çəkdiyini dilə gətirən gənc **Şəhanə Mirzəyeva** söyləyib ki, müraciət etdiyi əczaxanalarda maskanın olmadığı deyilsə də, metroda və digər yerlərdə tibbi maskalar pərakəndə satılır: "Əczaxanalarda tibbi maska yoxdur. Pərakəndə satılan tibbi maskaların qiyməti isə dəfələrlə bahadır. Əgər əvvəl tibbi maskanı 10 qəpiyə əldə edirdiksə, hazırda bu vasitə pərakəndə şəkildə 80-90 qəpiyə satılır. Əgər ailədə 10 nəfər varsa, hamını tibbi maska ilə təmin etmək olmur. Problemin qarşısının



alınması istiqamətində tədbirlər görülsə yaxşı olar".

Tibbi maskaların hazırlanması ilə bağlı sexin yaradılması təklifini irəli sürən paytaxt sakini **Gülxar Hüseynova** qeyd edib ki, adi vətəndaşları həmin sexlərə cəlb etməklə problemi aradan qaldırmaq olar: "Tibbi maska və spirtlə bağlı yaradılan qıtlıq bəzi şəxslər tərəfindən qəsdlə edilir. Bunun arxasında əlavə vəsait qazanmaq istəyi dayanır. Maya dəyəri olduqca aşağı olan tibbi maskanın qiymətinin 3 manata qədər bahalaşması yalnız məqsədli ola bilər. Hazırlanması çox asan və maya dəyəri ucuz olan tibbi maskanı insanların özləri də istehsal edə bilər".

Şəhər sakini T**ural Hüseynəliyev** də ötən gün qoruyucu və dezinfeksiya vasitələrinin qıtlığı ilə rastlaşdığını dilə gətirib: "Dünən bir neçə əczaxanaya girərək tibbi maska və spirt almaq istədim. Amma çox təəssüf ki, bu vasitələrin heç biri satışda yox idi. Bakı ərazisində sözügedən vasitələrlə bağlı qıtlıq var. Olan halda da limitlə satılır. Ona görə də tibbi maska və spirt almaq üçün Sumqayıt şəhərinə getməli oldum. Səbəbini soruşanda dərman şirkətlərinin onları bu vasitələrlə yetərincə təmin etmədiyini bildirirlər. Hətta bəzi əczaxanalarda bu vasitələri almaq üçün əvvəlcədən növbəyə yazılmaq da tələb olunur. Yalnız sifariş edən şəxslər vasitələrlə təmin olunur".



Qoruyucu və dezinfeksiya vasitələrinin qıtlığından narahatlıq keçirdiyini deyən gənc **Mehriban Mürsəlova** 1 bağlama tibbi maskanı 18 manata əldə etdiyini qeyd edib: "Bir neçə qab spirtlə tibbi maskaya 43 manat ödəməli oldu. Əvvəllər çox rahat əldə edəcəyimiz bu vasitələri indi həm çətinliklə, həm də çox baha qiymətə əldə edirik. Nədənsə bəzi şəxslər insanların alıcılıq qabiliyyətinin yüksək olmasından istifadə etməyə çalışırlar. Görünür, koronavirusun yayılması kimlərəsə sərf edir. Hazırkı vəziyyətdə insanların ən çox



ehtiyacı olduğu vasitələr və dərmanların qiyməti bilərəkdən bahalaşdırılır".

Vətəndaşlarımızın narazılığına aydınlıq gətirmək üçün şəhərin mərkəzində yerləşən bir neçə əczaxanalarda vəziyyətlə tanış olduq. Maska və spirt satışı ilə təminatında problem olmayan əczaxanalarda satışların limit əsasında həyata keçirildiyini müşahidə etdik. Qoruyucu və dezinfeksiya vasitələrinin vətəndaşlara çoxlu sayda satışı həyata keçirilmir. Bunun səbəbini öyrəndikdə əczaxana işçiləri son günlərdə sözügedən vasitələrə kütləvi tələbat olduğu üçün 1 vətəndaşa çoxlu sayda spirt və tibbi maskanın verilməsini digər vətəndaşlara haqsızlıq kimi qiymətləndirdilər. Gündəlik statistikaya görə, koronavirus təhlükəsindən öncə gün ərzində 100 ədəd maskaya, 20-30 ədəd spirtə ehtiyac var idisə, hazırda bir gündə 600-700 ədəd maska, 70-80 ədəd isə spirt satılır. Qiymətlərə gəlincə, tibbi maskaların qiyməti 20 qəpik, spirtin qiyməti isə yerli, Rusiya istehsalı olması ilə əlaqədar 55 qəpik və 2 manat 10 qəpik arasında dəyişir. Bu vasitələrin onlara AzərMed şirkəti tərəfindən təqdim edildiyi bildirildi.

Bəzi əczaxanalarda isə nə spirt, demək olar ki, nə də tibbi maskaya rast gəlmədik. Gördüyümüz mənzərədən məlum oldu ki, dərman şirkətləri bəzi əczaxanaları qoruyucu və dezinfeksiya vasitələri ilə təmin etməkdən yan qaçırlar. AvroMed şirkəti tərəfindən maska və spirtlə təmin olunan bu əczaxanalara yalnız 50 ədəd tibbi maska gətirilir ki, bu da alıcıları təmin etmək üçün azlıq təşkil edilir. Filtirli tibbi maskaların satışı ilə bağlı da vəziyyət eynidir. 1 həftə bundan öncə 3 və ya 3 manat 50 qəpiyə satılan filtirli maskalarla da qıtlıq yaşandığı məlum oldu. Vətəndaşların spirtlə bağlı tələbatına isə "yoxdur" cavabı verilir.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov** qeyd edib ki, tibbi maska və spirt çatışmazlığına təkcə paytaxtda deyil, həm də regionlarımızda rast gəlinir: "Hər gün bizə edilən onlarla müraciətdə əczaxanalarda qoruyucu və dezinfeksiya vasitələrinin qıtlığının olduğu bildirilir ki, bu da təbiidir. Çünki, tələb təklifi üstələdikdə, məhsulla bağlı qıtlıq, qiymətlərin bahalaşması, hətta bazara keyfiyyətsiz məhsulların daxil olmasına gətirib çıxarır. Narahatlığı yaradan əsas səbəblərdən biri insanların təşvişə düşməsi ilə bağlıdır ki, bunu yaratmaqda maraqlı olan bəzi biznes qüvvələri var. Bütün bunlar biznes etikasına zidd olan addımlardır. Prezident İlham Əliyev də Goranboyda səfərdə olarkən tibbi maska ilə bağlı məsələyə toxunaraq haqlı olaraq problemi yaratmaqda maraqlı olan şəxslərin olduğunu bildirdi. Bildiyiniz kimi ölkəmizdə biznes qurumları üçün hərtərəfli şərait yaradılıb. Amma nədənsə onların bəziləri yaradılan şəraiti düzgün qiymətləndirmir, sui-istifadə edirlər. Biznes qurumları bilməlidir ki, onları mövcud edən istehlakçılardır və ona görə də istehlakçıları narazı salmamalıdırlar. Bu, yolverilməzdir. Cənab Prezidentin iradlarını biznes qurumları da dəstəkləməli, onlara yaradılan şəraiti düzgün qiymətləndirməlidirlər".






Birlik sədrinin sözlərinə görə, sağlam adamın tibbi maskadan istifadəsinə ehtiyac yoxdur: "Qoruyucu vasitələrdən, əsasən xəstələr istifadə etməlidirlər ki, ətrafdakıları infeksiyaya yoluxdurmasınlar. Sağlam adamlar özlərini gözləməli, soyuqdəyməkdən qorunmalıdırlar. Əgər tibbi maskaya ehtiyac varsa, özləri də tənzifi 2-3 qat edib düzəldə bilərlər. Ən narahatedici məqamlardan bazara çox pis qoxulu spirtlərin daxil olmasıdır ki, artıq onunla bağlı da bizə şikayətlər olub. Hesab edirəm ki, bu tullantılardan hazırlanan spirtdir. Belə vasitələr nəinki insanları xəstəlikdən qoruyar, hətta müxtəlif xəstəliklər də gətirə bilər. Bu baxımdan, təşvişə düşməməli, gigiyenik qaydalara riayət etməklə özümüzü xəstəliklərdən qorumalıyıq".

Qeyd edək ki, qoruyucu və dezinfeksiya vasitələrindən təkcə koronavirus təhlükəsinə görə istifadə edilmir. Ölkəmizdə onlarla onkoloji, immun çatışmazlığı, infeksion və digər xəstəliklərdən əziyyət çəkənlər var ki, yaranan qıtlıq və bahalaşma onları da təhlükə altına qoyur. Xəstələri çarəsiz qoymağa heç birimizin haqqı yoxdur.

***Nailə Məhərrəmova***

# Erməni saytı Nikol Paşinyanı və hökumətini virus adlandırdı

## "7or.am": "Koronavirus ətrafında siyasi şou"

***"Koronavirusla bağlı məsələ Nikol Paşinyanın rəhbərlik etdiyi hökumətin qeyri-ciddiliyini və ictimai təhlükəyə yol açdığın növbəti dəfə aşkar etdi". Bu barədə Ermənistanın "7or.am" xəbər saytının təhlil bölməsində yazılıb. Ermənistan hakimiyyətinin bir-birini təkzib edən bəyanat və rəylərini ifşa edən yazıda xronoloji sıralama ilə bir sıra məqamlara toxunulub: "Gəlin xronologiyaya nəzər salaq. Onlar öncə, İranla bağlı təhlükədən danışanları - "əgər bu problem İranda varsa, demək bizdə də olacaq və ona görə də təxirəsalınmaz ölçülər götürülməlidir" iddiasında olanları tənqid edirdilər. "Mənim addımım"ın ştatlı təmsilçiləri iddia edirdilər ki, heç bir problem yoxdur. Ancaq onların bəyanatlarından sonra Nikol İranla sərhədləri bağladı".***



### "Onun yaltaqları sübut etməyə çalışırdılar ki, bu şayiəni "qaralar" yaymağa çalışırlar"

Ermənistan xəbər agentliyi daha sonra Paşinyanın digər addımlarını ifşa edərək yazır ki, erməni baş nazir hər şeyin normal olduğunu deyib və martın 1-də yürüş vaxtını təyin etməklə, siyasi şou yaratmağa çalışıb: "Mütəxəssislər isə yalnız 1 martı deyil, ümumiyyətlə, belə bir zamanda yürüşlərin keçirilməsinin yolverilməz olduğunu bildirdilər. Belə ki, virusun yayılması təhlükəsi qalmaqdadır. Həmin mərhələdə Nikolun yürüşün vaxtının dəyişdirilməsi ilə bağlı qərarı yox idi. Onun yaltaqları sübut etməyə çalışırdılar ki, bu şayiəni "qaralar" yaymağa çalışırlar. Nikol anlayanda ki, yürüşdə az adam iştirak edəcək, yəni lazımi qədər iştirakçı yığılmayacaq, dərhal İrəvanda koronavirus yoluxması barədə danışdı və hesab etdi ki, yürüşü təxirə salmaq lazımdır".

### "Nəticədə Arsen Torosyan axmaq vəziyyətdə qaldı..."

Adıçəkilən erməni saytı daha sonra qeyd edir ki, onun (Nikol Paşinyanın) tərəfindən təyin edilmiş nazirlər özlərini müvafiq vaxtda əsl inqilabçılar kimi apardılar. Yəni xalqı qorxaqlıqda ittiham edərək, ictimaiyyəti qınayan fikirlər səsləndirdilər. "Biri yazdı ki, əgər bu qədər virusdan qorxursunuzsa, uşaqlarınızı məktəblərə yollamayın. Səhiyyə naziri isə bəyan etdi ki, o öz uşağını məktəbə yola salacaq. Arsen Torosyan həmin bəyanatını verər-verməz, Nikol Paşinyan təhsil müəssisələrinin bir həftəliyinə bağlanması qərarını verdi. Nəticədə, Arsen Torosyan axmaq vəziyyətdə qaldı və onun öz uşaqlarını məktəbə göndərib-göndərməməsi, ya da partiya və rəhbərinin qərarına tabe olması bəlli deyil" deyə sayt yazır.

Sayt sonda yazır ki, virusun daşıyıcısına gəlincə, Nikol və Arsen birgə hazırladıqları və bir-birinə zidd olan ifadələrlə, marazm bəyanatları ilə müşahidə edilən tamaşanı oynayıblar. "Bir sözlə, Ermənistanda daha təhlükəli virus var. Özü də bu virus "korona"nın gəlməsinə qədər ölkəyə daxil olub" deyə bildirilir.

***Rövşən NURƏDDİNOĞLU***



# Almaniya Bundestaqının vitse-prezidenti: "Xocalıda baş verənlər insanlığın faciəsidir"

Xocalıda baş verənlər insanlığın faciəsidir. Bu fikri Almaniya Bundestaqının vitse-prezidenti Tomas Opperman Berlində "Cənubi Qafqazda sabitlik və təhlükəsizlik. Almaniya-Azərbaycan əməkdaşlığının perspektivləri" mövzusunda keçirilən simpoziumda söyləyib.

Tomas Opperman Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli yollarının araşdırılmalı olduğunu, Almaniyanın bu prosesə dəstək verməyə hazır olduğunu qeyd edib. O, həmçinin Azərbaycanın mürəkkəb geosiyasi mövqedə yerləşdiyini və regionda təhlükəsizliyin təmin edilməsinin Almaniyanın maraqlarında olduğunu vurğulayıb.

Azərbaycan-Almaniya münasibətlərini səciyyələndirən T.Opperman bu münasibətlərin 200 illik tarixə malik olduğunu, ölkələrimiz arasında iqtisadi və mədəni əlaqələrin yüksək səviyyədə olduğunu deyib, bunun daha da dərinləşdirilməsi üçün mövcud olan imkanları qeyd edib. Bundestaqın vitse-prezidenti Azərbaycandakı multikulturalizmi və dini tolerantlığı yüksək qiymətləndirib, ölkəmizi bu mənada digər ölkələr üçün nümunə adlandırıb.

# Azərbaycan Hökuməti "COVID-19 müraciəti" Fonduna maliyyə yardımının verilməsi barədə qərar qəbul edib

Azərbaycan Respublikası və Dünya Səhiyyə Təşkilatı (ÜST) arasında uzunmüddətli səmərəli əməkdaşlıq münasibətləri mövcuddur. Azərbaycan Respublikası Hökuməti dünyada koronavirus infeksiyasının yayılması riskinin qarşısının alınması istiqamətində beynəlxalq birliyin səylərinə töhfə məqsədilə DST-nin "Strateji Hazırlıq və Cavab Planı" çərçivəsində "COVID-19 müraciəti" Fonduna 5 milyon ABŞ dolları məbləğində könüllü maliyyə yardımının verilməsi barədə qərar qəbul edib. Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikası DST-nin qlobal miqyasda COVID-19 virusuna qarşı mübarizə səylərini yüksək qiymətləndirir. DST-nin COVID-19 virusu ilə bağlı tövsiyələri Azərbaycan tərəfindən nəzərə alınır və tətbiq olunur. Azərbaycan Respublikasının DST ilə səmərəli əməkdaşlığı davam edir və martın 8-də qurumun ekspertlərindən ibarət nümayəndə heyəti ölkəmizə səfər edəcək.



# Fransanın "Planetes360.fr" portalı Azərbaycan qadınlarının uğurlarından və parlament seçkilərində iştirakından yazır




Ölkənin ictimai-siyasi və mədəni həyatında aparıcı qüvvəyə malik olan Azərbaycan qadını cəmiyyətdə böyük nüfuza malik varlıqdır. Tariximizin mürəkkəb ictimai-siyasi proseslərində cəmiyyətin sarsılmaz mənəvi dayağına çevrilən Azərbaycan qadını XX yüzilliyin ilk onilliklərində fəallıqları ilə seçilmişlər. Müsəlman Şərqində qadınlar arasında incəsənətin, elmin və texnikanın bir çox sahələri üzrə ilk addımı, məhz Azərbaycan qadını atmışdır. 1918-ci il mayın 28-də yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində ilk demokratik respublika olmaqla yanaşı, qadınların seçib-seçilmək hüququnu tanıyan, qadın-kişi bərabərliyini təmin edən ilk müsəlman ölkəsi olub. Məhz bu dövrdə milli qadın siyasəti dövlət statusu alıb. Bununla da, nəinki Şərqdə, hətta demokratiyanın beşiyi sayılan bir sıra Avropa ölkələrindən və ABŞ-dan əvvəl, məhz Azərbaycanda qadına cəmiyyətin həyatında siyasi proseslərə qoşulmaq hüququ verilib.

Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasət nəticəsində, bu gün Azərbaycan Xalq Cümhuriyyətinin layiqli varisi kimi müasir müstəqil Azərbaycanda demokratik dövlət quruculuğu daha da inkişaf etdirilir. Bunların fonunda qadın hüquqlarının qorunması məsələsi də öz aktuallığını qoruyub-saxlayıb. Bu gün müstəqil Azərbaycanın qadınları parlamentdə, icra hakimiyyəti orqanlarında, bələdiyyələrdə, təhsil, səhiyyə sahələrində, biznes strukturlarında, idmanda, hüquq- mühafizə orqanlarında və digər sahələrdə kişilərlə bərabər vəzifələrdə təmsil olunurlar. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti nəticəsində, Azərbaycan qadınlarının ölkənin ictimai-siyasi həyatında fəal iştirakına maraq artıb. Bu günlərdə Fransanın "Planetes360.fr" portalında "Azərbaycan: qadınlar parlament seçkilərinin əsl qalibləridirmi?" adlı məqalədə Azərbaycan qadınlarının uğurlarından bəhs olunur. Məqalədə Azərbaycanda keçirilən parlament seçkilərində qadınların iştirakından, eləcə də, onların cəmiyyətdə yerindən bəhs olunur. Parlament seçkilərində 299 qadın namizədin mübarizə apardığı vurğulanır. Seçkilərə qatılan qadın namizədlər barədə məlumat verilir. Qeyd edilir ki, seçkilərdə namizədlərin 22,58 faizini qadınlar təşkil edib. Yazıda seçkilərin müxtəlif beynəlxalq təşkilatlar, ölkələr, eləcə də, Fransa senatorları tərəfindən müşahidə edildiyi vurğulanır, müşahidəçilərin seçkilərlə bağlı fikirlərinə yer verilir. Bu seçkilərin ölkədə demokratiya quruculuğu prosesinin tərkib hissəsi olduğu vurğulanır.

Yazıda, həmçinin, Azərbaycan qadınlarının cəmiyyətdə yeri və rolu, eləcə də, onların statusu haqqında məlumat verilir. Bildirilir ki, ölkə həyatının bütün sahələrində qadınların fəallığı müşahidə olunur. Ölkədə qadınlar ən yüksək vəzifələrdə təmsil olunurlar. Qadın siyasəti nəticəsində Azərbaycan qadını elm və təhsil, səhiyyə və mədəniyyət, eləcə də, digər sahələrdə qazandığı uğurları ilə öz nüfuzunu ilbəil artırmağa nail olur. Vətəndaş cəmiyyəti quruculuğu istiqamətində qadınlarımızın nailiyyətləri göz önündədir. Ölkəmizdəki sabitlik və demokratik mühit fitri istedadlarını və yaradıcılıq imkanlarını tam gerçəkləşdirməyə imkan verir. Məqalədə qeyd edilir ki, UNİCEF Azərbaycanın təhsil və intellektual sahədə zəngin irsi ilə fərqləndiyini və qadınların mühüm sahələrdə fəaliyyət göstərdiyini öz hesabatında vurğulayır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# 100 yaşlı müharibə qəhrəmanı

## Fatma Səttarova: 1941-ci ildə Moskva uğrunda döyüşü hələ də xatırlayıram

***2020-ci il, xüsusən 1941-1945-ci illərin Böyük Vətən müharibəsini görmüş insanların hər biri üçün əlamətdar ildir. Öz gənclik illərini faşizmə qarşı mübarizəyə həsr etmiş, cəbhələrdə ağır döyüş yolları keçmiş, Leninqrad mühasirəsinin şahidi olmuş və sağ qalmış, hərbi zavodlarda çalışmış, hospitallarda yaralıları xilas etmiş müharibə və əmək veteranları bu il Qələbənin 75 illiyini həyəcan və qürur hissi ilə qarşılayırlar. İllər öz işini görür, bu veteranların sayı getdikcə azalır, ona görə də bu gün Böyük Qələbə Gününü bizimlə birlikdə qarşılayanların xatirələri gənc nəsil üçün xüsusilə qiymətlidir...***



AZƏRTAC xəbər verir ki, Fatma Səttarova müharibənin başlandığı ilk aylarda könüllü olaraq cəbhəyə gedib. O vaxt 18 yaşı vardı. Texnikumu yenicə bitirmiş, 1941-ci ilin yanvarında ərə getmişdi. Əlbəttə, təsəvvürünə də gəlməzdi ki, cəmi bir neçə aydan sonra onun həyatı tamamilə dəyişəcək. İyunun 22-də Almaniyanın Sovet ittifaqına hücum etməsi elan olunandan sonra ona əziz olan, adət etdiyi nə vardısa, hamısı məhv olacaq.

Bu gün ona cəbhədə keçirdiyi ilk günlər barədə sual verilləndə cavabında deyir ki, o vaxt həyat iki hissəyə bölünmüşdü - müharibə başlanana qədər və ondan sonra. Fatma Səttarova deyir: "Müharibəyə gedəndə çox gənc idim, lakin orada çoxsaylı iztirabların və ölümlərin şahidi oldum, aclıq nə demək olduğunu özüm gördüm... Bunları xatırlamaq çox çətindir, cəbhə yollarını, ağır yaralanmış əsgərləri faşist artilleriyasının atəşləri altında döyüş meydanından çıxarmağımızı, hərbi hospitallarda keçirdiyimiz yuxusuz gecələri unutmaq mümkün deyil. O vaxtdan neçə illər keçib, amma müharibəni unutmaq olmaz. Bu xatirələr həmişə qəlbimdə qalacaq". O, daha sonra deyir: "Cəbhəyə çağırışdan yayınmağı ağlımıza da gətirməzdik, hər kəs bilirdi ki, onun qarşısında doğma yurdu düşməndən qorumaq vəzifəsi durur".

Fatma Səttarova cəbhəyə gedəndə əri Pyotr Montin adına maşınqayırma zavodunun (sonradan leytenant Şmidt adına maşınqayırma zavodunun) müdiri idi. Müharibə illəri ərzində bu zavodun profili dəyişdirilərək döyük sursatı istehsalına yönəlmişdi, zavodun işçiləri isə arxa cəbhə iştirakçıları sayılırdı.

Dörd il davam etmiş Böyük Vətən müharibəsi dövründə bu qəhrəman qadın 1941-1942-ci illərdə Moskva uğrunda döyüşdə iştirak edib. Tank döyüşü zamanı əslində döyüş meydanında olub, səngərdən gələn zəif inilti səslərini eşidib. Bu mənzərə onun yaddaşında ömürlük həkk olunub. Lakin təhlükə barədə düşünməyən, hərbi şəfqət bacısı kimi borcunu yerinə yetirən Fatma tankların gurultusuna, atəşdən yaranan tüstüyə əhəmiyyət vermədən yaralı əsgərin həyatını xilas etmək üçün səngərə tullanırdı. Tibb bacısı Fatma Səttarovanın səbhə yollarında xilas etdiyi yaralıların sayını söyləmək çətindir. O vaxt Moskva ətrafında döyüş meydanında bu şəfqət bacısını və bir əsgəri, demək olar ki, yerin altından xilas etmişdilər. Sonradan başa düşdü ki, sadəcə, bəxtləri gətirib. O, səngərdə olarkən bir dəqiqədən sonra düz onların üstündən tanklar keçdi. Fatma xanım o günü xatırlayaraq deyir: "Görünür, bu döyüşdə salamat qalmaq hər ikimizin taleyinə yazılıbmış. O vaxt elə bərk qorxmuşdum ki, bir müddət nitqimi itirdim. Biz bütün gecəni həmin səngərdə keçirdik. Yalnız səhər bizi oradan götürdülər".

Fatma Səttarova dörd ay yarım Leninqrad mühasirəsini, mühasirədə olan şəhərdən o biri sahilə Ladoqa gölü üzərindən salınmış "Həyat yolu" ilə ərzaq, dava-dərman daşınması və bərələrin keçirilməsi zamanı neçə-neçə insanın həlak olmasını gözləri ilə görüb. Sonradan bu yolun daha bir adı yaranacaq - "ölüm yolu". Amma o vaxt Leninqradın müdafiəçiləri Neva üzərində qala kimi dayanmış, faşistlərə təslim olmamış qəhrəman şəhərin neçə-neçə qurbanlar verməli olacağı barədə düşünmürdülər...

Fatma Səttarova Leninqradın mühasirəsi barədə cansıxıcı təfsilata varmaq istəmir. O, ürək yanğısı ilə deyir: "Həmin günlərdə dəfələrlə ölümlə üzbəüz olmuşam. Lakin görünür, xoşbəxt ulduz altında doğulmuşam ki, bütün bunlardan sonra sağ qalmışam və bu yaşa çatmışam".

Fatma Səttarova sovet ordusu ilə birlikdə Berlinə qədər gedib. 1945-ci ilin fevralında - faşist Almaniyası üzərində Qələbədən bir qədər əvvəl Tibbi Komissiyanın qərarı ilə ordudan tərxis olunub. Yaralılardan ibarət eşelonu müşayiət edərək doğma Bakıya qayıdıb. Cəmi 3 ay sonra Qələbə haqqında çoxdan gözlənilən xəbər gəldi. Berlində Reyxstaq üzərində Qələbə bayrağı sancılmasının elan edildiyi günü xatırlayanda indi də gözlərində sevinc parıltısı duyulur, o vaxt isə sevincindən səhərə qədər ağlamışdı.

Yubiley ilində - Qələbənin 75 illiyində Fatma xanımın 100 yaşı tamam olub. Hərçənd, sənədlərə görə iki il cavandır. Bu, həmin illər üçün adi hadisədir. O, 1920-ci ilin yanvar ayında Bakıda anadan olub, amma doğum haqqında şəhadətnaməni yalnız iki ildən sonra veriblər. O vaxt belə sənədlərə böyük əhəmiyyət verilmirdi və valideynlər uşağı doğulduğu vaxt qeydiyyata aldırmırdılar. Yalnız onların evinə yoxlama üçün gələndə məlum oldu ki, qızın doğum haqqında şəhadətnaməsi yoxdur. Fatma xanım gülə-gülə deyir: "İş elə gətirdi ki, mən iki yaşımda öz ayağımla atamla bərabər doğum haqqında şəhadətnamə almağa getdim. Lakin bizə iki il əvvəlki tarixlə doğum haqqında şəhadətnamə verməkdən qəti imtina etdilər. Beləliklə, sənədlərə görə indi mənim 98 yaşım, əslində isə 100 yaşım var".

...Müharibədən sonra səhiyyə sistemində işləməyib. Müharibə illəri ərzində qan tökülməsini, insanların şikəst olmasını, həyatdan getmələrini çox görməli olub. Bakı Dövlət Universitetində "İqtisadiyyat" ixtisası üzrə ikinci təhsil alıb. Ərini tez itirib, uşaqları özü böyüdüb, tərbiyə edib. Bütün həyatı boyu, hətta pensiyaya çıxandan sonra da işləyib, illər boyu rəhbər vəzifələr tutub. Onun 4 övladı, 11 nəvəsi və 22 nəticəsi var. İctimai həyatda indi də fəal iştirak edir, doğma ölkəmizdə və dünyada baş verən hadisələri izləyir, tez-tez dəvət aldığı müxtəlif tədbirlərə gedir, insanlarla ünsiyyətdə olmağı xoşlayır, müsahibə verməkdən imtina etmir.

Bu günlərdə Fatma xanım Moskva səfərindən qayıdıb. Orada Böyük Vətən müharibəsi veteranları olan qadınları 8 Mart bayramı münasibətilə "Rusiya Veteranlar İttifaqı" Ümumrusiya İctimai Təşkilatının sədri, Müqavimət Hərəkatı İştirakçılarının Beynəlxalq Federasiyasının - Antifaşistlər Assosiasiyasının vitse-prezidenti general Mixail Moiseyevlə görüşə dəvət etmişdilər. Böyük Qələbənin 75 illiyi münasibətilə təkcə Rusiyadan deyil, Azərbaycan, Özbəkistan, Qazaxıstan və başqa ölkələrdən olan Böyük Vətən müharibəsi iştirakçıları olmuş qadınlar da Moskvaya gəlmişdi. Onları "Şit i roza" ("Qalxan və qızılgül") Ümumrusiya illik ictimai mükafatının təqdim edilməsi ilə bağlı təntənəli mərasimə də dəvət ediblər.

Tədbirdə RF Prezidenti Administrasiyasının, Federasiya Şurasının, Dövlət Dumasının, nazirlik və idarələrin nümayəndələri, habelə tanınmış siyasətçilər, idmançılar və ictimai xadimlər də iştirak ediblər. 2020-ci ildə bu mükafat səkkiz nominasiyada təqdim edilib: "Xidməti borcuna sədaqətə görə", "Vətənə çoxillik xidmətə görə", "Yüksək idman nailiyyətlərinə görə" və sair.

Rusiya Prezidenti Vladimir Putin "Şit i roza" Ümumrusiya ictimai mükafatının təqdim edilməsinə həsr olunmuş XII mərasimin təşkilatçılarına, iştirakçılarına və qonaqlarına ünvanlanmış və Kremlin saytında yerləşdirilmiş teleqramında gözəl bayram - Beynəlxalq Qadınlar Günü ərəfəsində hüquq-mühafizə orqanlarının və xüsusi xidmətlərin əməkdaşlarını - həyatlarını Vətənə xidmətə həsr etmiş, öz borcunu şərəflə yerinə yetirən, mürəkkəb məsələlərin həlli zamanı səriştəlilik, diqqətcillik, bəzən isə əsl mərdlik nümayiş etdirən istedadlı, qeyri-ordinar, geniş qəlbli qadınları ürəkdən təbrik edib. Bütün bu səmimi sözlər, əlbəttə, Böyük Vətən müharibəsi illərində Vətənə hədsiz sevgi, ruh yüksəkliyi, əsl şücaət, faşizm üzərində Qələbəyə sonsuz inam nümayiş etdirmiş veteran qadınlara da aiddir.

Fatma xanım Moskvadan Bakıya bayram əhval-ruhiyyəsində, iki medalla - "1941-1945-ci illərin Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi" və "Vətənin fəxri" medalları ilə qayıdıb. "Uçuş necə keçdi?" sualına isə gümrah şəkildə cavab verib: "Əla!".

Biz də ona cansağlığı və böyük, səmimi ailəsinin, dostlarının əhatəsində xoşbəxt günlər yaşamasını arzulayırıq.

*Martın 5-də Rusiya və Türkiyə prezidentləri Vladimir Putinlə Rəcəb Tayyib Ərdoğanın Moskvada görüşü bütün dünyanın diqqət mərkəzində idi. Çünki bu görüşün son zamanlar Suriyada yaranmış gərginliyin aradan qaldırılması məqsədilə təşkil edildiyi heç də sirr deyildi. Bəllidir ki, tərəflərin hər ikisinin də məqsədi İdlibdəki gərginliyə son qoymaq, münasibətlərə aydınlıq gətirmək olub.*

# Rusiya və Türkiyə münasibətləri yüksək qiymətləndirir



Rusiyada baş tutan və əsas müzakirə mövzusu İdlibdəki gərginlik fonunda Suriya böhranının nizamlanması olan görüşə böyük ümidlər bəslənilir. Şübhəsiz ki, İdlibdə vəziyyətin gərginləşməsi Türkiyə üçün də təsirsiz ötüşməyib və Türkiyə liderinin bu hala biganə qalacağını ağıla belə gətirmək də mümkünsüzdür. Çünki Türkiyə ordusunun 40-a yaxın şəhid verməsi sıradan bir hadisə, yaxud qəza deyil və bunun hesabının sorulacağı da günün reallığıdır. Məhz bu baxımdan da, bütün dünyanın diqqətinin Ərdoğan-Putin görüşünə cəmləndiyinin səbəbi də başadüşüləndir.

Türkiyə son bir neçə gündə "Bahar qalxanı" əməliyyatı vasitəsilə İdlibdəki hərbi-hava qüvvələrinin sistemini tamamilə sıradan çıxarıb. Rusiya isə bu məsələyə qoşulmadığını hər dəfə iddia edir, halbuki rusların əməliyyat aparılan ərazidə çoxdandır ki, patrul qüvvələri, vəziyyəti diqqətdə saxlamaq üçün nəzərdə tutulan hərbi polisi var. Suriyanın da hava məkanını tam şəkildə bağlaya bilməyəcəyi aydın məsələdir və tərəflərin toqquşması da bu səbəbdən, hər an baş verə və dəfələrlə təkrarlana bilər. Hətta bu hal Rusiya ilə Türkiyə arasındakı, nəinki gərginliyə səbəbdir, hətta münasibətlərin tamamilə pozulmasına gətirib çıxara bilərdi. Elə bu aspektdən də Moskvada baş tutan görüşdə tərəflərin hər ikisinin də maraqlı olduğunu təkzib etmək mümkün deyil.

Nəzərə alsaq ki, ABŞ ilə münasibətlər hər iki ölkə üçün arzuolunmazdır və hardasa Türkiyə və Rusiyanı bir müstəvidə qərarlaşdıran, bir az da yaxınlaşdıran səbəblərdən biri də elə budur və bu mənada, münasibətlərin pozulmasını heç biri istəməz. Dünya düzəninə az qala özünü nəzarətçi kimi aparan ABŞ başqa bütün ölkələrdə olduğu kimi proseslərə, kobud şəkildə desək, çoxdan burnunu soxardı. Amma Birləşmiş Ştatlar İdlibdə baş verənlərə, sadəcə, müşahidəçi kimi tamaşa edir və bu, heç də əbəs yerə deyil. Ona görə əbəs yerə deyil ki, ABŞ bu bölgədə hadisələrin daha da qızışmasında, Türkiyə ilə Rusiyanın maraqlarının toqquşmasında, münasibətlərinin pozulmasında çox maraqlıdır və istəyi də elə budur. Məhz buna görə də Birləşmiş Ştatlar qəti bu hadisələrə qarışmır. Bu baxımdan, istər Türkiyənin, istərsə də Rusiyanın, çox güman ki, ABŞ-ı sevindirmək niyyəti ola bilməz və hər iki ölkənin liderlərinin Moskvada olan görüşünü maraqların təmin olunması üçün əlverişli şans adlandırmaq da olar.

Xatırladaq ki, Rusiya və Türkiyə prezidentlərinin 5 mart tarixində Moskvada keçirdikləri təkbətək görüş 3 saat çəkib. Bu barədə jurnalistlərə Kremlin mətbuat katibi Dmitri Peskov məlumat verib. Görüş zamanı Putin, xüsusilə, vurğulayıb ki, Rusiya və Türkiyə liderləri arasındakı şəxsi təmaslar beynəlxalq problemlərin həllinə ümumi yanaşmanı tapmağa imkan verir. Danışıqların yekunu olaraq, Rusiya və Türkiyə Suriya münaqişəsinin nizamlanması ilə bağlı birgə sənədi razılaşdırıblar. Rusiya və Türkiyə Suriyada 6 kilometr uzunluğunda təhlükəsizlik dəhlizi yaradılması haqqında razılığa gəlib. Bu razılıq Rusiya və Türkiyə prezidentləri Vladimir Putin və RəcəbTayyib Ərdoğan arasındakı danışıqların yekunu ilə bağlı Kremldə imzalanan sənəddə öz əksini tapıb. Ankara və Moskva Suriyadakı BMT Təhlükəsizlik Şurasının tanıdığı bütün terrorçu qrupların məhv edilməsi əzmində olduqlarını ifadə ediblər. Qeyd olunub ki, mülki əhaliyə və infrastruktura qarşı təhdidlərə hansısa bəhanə ilə haqq qazandırılmamalıdır və Rusiya da, Türkiyə də Suriyanın suverenliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə sadiqdirlər.



Göründüyü kimi, hər iki ölkə liderləri Moskvada görüşdüyü zaman ortaq məxrəcə gəliblər və bu, onların maraqlarının üst-üstə düşdüyünün növbəti dəfə təsdiqi deməkdir. Hətta hansısa toqquşmaların belə olması və yaxud ola bilmə ehtimalına da aydınlıq gətirilib. Rusiya prezidenti Vladimir Putin, türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanla görüşündə Suriyada Türk əsgərlərinin ölümü ilə əlaqədar başsağlığı verərək, onların harada olduqlarını heç kimin bilmədiyini söyləyib. "Təəssüf ki, telefon danışığında dediyim kimi, heç kim, o cümlədən, Suriya hərbçiləri də onların yerləşdikləri yerləri bilməyiblər" deyə Rusiya prezidenti əlavə edib. Bu isə, təbii ki, ondan xəbər verir ki, Türk əsgərinin ölümü Rusiya tərəfini heç də qane edən məsələ deyil. Bu, heç Rusiya tərəfi üçün sərfəli məsələ də ola bilməz. Rusiya prezidentinin özünün də qeyd etdiyi kimi, onun təəssüf hissi keçirməsi bunun əksini təsdiq edir.

Həqiqətən də, Rusiyanın Türkiyə ilə münasibətlərdə maraqlı olduğunun hər an şahidi oluruq və bu münasibətlərə rəsmi Moskvanın həddindən artıq həssas yanaşdığı da göz qabağındadır. Diqqət etdikdə, görürük ki, Türkiyənin mövqeyinə Rusiya tərəfi biganə deyil və hətta hörmətlə yanaşır və münasibətlərini də qorumaq niyyətindədir. Əbəs yerə deyil ki, Rusiya prezidenti bunu öz nitqində də ifadə edib. "Bu günə qədər inkişaf edən bütün vəziyyət barədə sizinlə danışmaq lazımdır ki, bizim münasibətlərimiz, Rusiya-Türkiyə münasibətləri pozulmasın. Biz bu münasibətləri çox qiymətləndiririk" deyə Rusiya prezidenti bildirirsə, deməli, həqiqətən də, bu münasibətlər yüksək səviyyədə qiymətləndirilir.

Sözsüz ki, Türkiyə liderinin də bu münasibətlərdə maraqlı olduğu aydın olur. Görüş zamanı da bu maraq öz təsdiqini tapdı və Rəcəb Tayyib Ərdoğan da, öz növbəsində, bu münasibətlərə həssas yanaşdığını vurğuladı. Türkiyə prezidenti əsas vəzifənin Moskva ilə Ankara arasındakı əlaqələrin inkişaf etdirilməsi olduğunu söyləməklə bunu təsdiqlədi. "İndi münasibətlərimizin pik həddə çatdığı bir anı yaşayırıq. Bu, şübhəsiz ki, müdafiə sənayesi, ticarət və sair əlaqələrə aiddir. İnanırıq ki, ən böyük vəzifə münasibətlərimizi təşviq etmək və inkişaf etdirməkdir. Bu məsələnin həllinə müvəffəq olacağımıza inanırıq" deyə Rəcəb Tayyib Ərdoğan bildirib ki, bu da, öz növbəsində, Türkiyə liderinin münasibətlərin qorunmasında maraqlı olduğunu təsdiq edir.

Putinin Avropa Şurasının prezidenti ilə İdlibdə vəziyyətin gərginləşməsi barədə müzakirə aparması özü də diqqəti cəlb etməyə bilməz. Kremlin mətbuat xidmətinin yaydığı məlumata görə, Rusiya prezidenti Vladimir Putinin Avropa Şurasının prezidenti Çarlz Mişel ilə telefon danışığı zamanı Suriyadakı vəziyyət və İdlibdə yaraqlılar səbəbindən gərginliyin artması müzakirə olunub ki, bu özü də bir sıra məsələlərə aydınlıq gətirir. Belə ki, əgər Putin Ərdoğanla, sadəcə, diplomatiya xatirinə görüşsəydi, ardınca Avropa Şurasının prezidenti Çarlz Mişel ilə belə bir telefon danışığı etməzdi. Belə bir ardıcıllıq özü də təsdiq edir ki, təkcə Türkiyə tərəfi deyil, Rusiya özü də həm münasibətlərin qorunub-saxlanmasında, həm də İdlibdəki vəziyyətin nizama salınmasında kifayət qədər maraqlıdır.

Digər tərəfdən, hadisələrin gedişatı da deyilənləri təsdiqləyir və bu, bütün dünyanın da diqqətindən yayına bilməz. Belə ki, cümə günü - 6 mart tarixində, Moskva vaxtı ilə 00: 01-də Suriyanın İdlib şəhərində de-eskalasiya zonasında hərbi əməliyyatların dayandırılması, rəsmi olaraq, qüvvəyə minib. Rusiyaya məxsus TASS agentliyinin məlumatına əsasən, Rusiya xarici işlər naziri Sergey Lavrov razılıqların əldə olunduğunu söyləyib. Onun sözlərinə görə, atəşkəs Rusiya və Türkiyə prezidentləri Vladimir Putin və Tayyib Ərdoğan tərəfindən razılaşdırılıb.

Göründüyü kimi, de-eskalasiya zonasında hərbi əməliyyatların dayandırılması artıq Türkiyə lideri, prezident Rəcəb Tayyib Ərdoğanla Rusiya prezidenti Vladimir Putin arasında görüşün nəticə verdiyini təsdiqləyir. Həm də dərhal bu nəticənin şahidi olduq ki, bu məqam özü də kifayət qədər diqqətəlayiqdir. Ona görə ki, danışıqların ardınca dərhal atəşkəsin reallaşdırılması, birmənalı şəkildə, hər iki ölkə başçısının, eləcə də, rəsmi Moskvanın və Ankaranın bu məsələdə maraqlı olduğuna zərrə qədər şübhə yeri qoymur.

***İnam HACIYEV***

# Xalqımızın soykökünə bağlı olan adət-ənənələrimiz yaşayar



Milli-mənəvi dəyərləri ilə dünyada tanınan Azərbaycan xalqı zaman-zaman yaşatdığı və təbliğ etdiyi bəşəri ideyaları, gözəl adət-ənənələri və milli xüsusiyyətləri ilə dünya xalqları arasında özünəməxsus yer tutub. Xalqın tarixi ilə bağlı aparılan tədqiqatlar zamanı aydın olub ki, qədim köklərə malik Azərbaycan əsrlər boyu öz maddi və mənəvi xəzinəsini qoruyub-saxlaya bilib. Bu zəngin irsdə xalqın soykökünə bağlı olan adət-ənənələr yaşayaraq bizim əsrə, yəni yüzilliyə qədər gəlib çatmışdır. Hər il müsəlman dünyasının böyük həvəslə qarşıladığı və yola saldığı Novruz bayramı xalqın tarixi kökünü, adət-ənənələrini özündə yaşadan gündür. Bayramın qeyd olunmasına qədər, bildiyimiz kimi, dünyanın və insanın yaranması ilə bağlı müqəddəsləşdirilmiş Su, Od, Yel və Torpaq çərşənbələri qeyd olunur. Çərşənbələr Novruz bayramının əvəzolunmaz atributlarındandır. Bu dörd Çərşənbənin qeyd olunmasının arxasında böyük həqiqətlər dayanır. Folklorşünas alimlərin fikrincə, bu çərşənbələr insanın həyata gəlişi və həyatın canlanması ilə əlaqədardır. Hər Çərşənbə təbiətin bir ünsürü ilə əlaqələndirilib.

Martın 10-da xalqımız Üçüncü Çərşənbəni, "Yel Çərşənbəsi"ni qeyd edəcək. Xalq arasında "Külək oyadan Çərşənbə", "Küləkli Çərşənbə", "Yelli Çərşənbə" adı ilə də tanınan Yel Çərşənbəsində Yel Baba yatmış torpağı silkələyib oyadır və cana gətirir. Əski etiqadlara görə, məhz o gün "qara nəhr"də yatmış dörd cür külək Yer üzünə çıxaraq, əvvəlcə özü təmizlənir, sonra isə hər biri bir libasda özünü göstərir. Burada rənglər də mifik məna daşıyır. Ağ Yel - ağ libasda, qara Yel - qara libasda, Xəzri - göy libasda, Gilavar qırmızı libasda təsəvvür edilir. Yel Çərşənbəsi bu dördlüyün cəmində, qısa müddətdə bütün dünyanı gəzib-dolaşır.

Azərbaycan mifik təfəkküründə yel yol göstərən və bələdçi rolunu yerinə yetirir. Yel Baba qalın meşələrdə azıb mənzilini tapmaqda çətinlik çəkən xeyirxah insanların qarşısına çıxır, onlara bir yumaq verir və yumağı yerə atıb diyirlətməyi tələb edir. Yel Babanın üfürməsi ilə yumaq açılır və yolunu itirmiş insanları mənzil başına çatdırır. Yel Çərşənbəsi günü tonqallar qalanır, evlərdə südlü plov və ya bulğur aşı bişirilir. Süfrəyə daha çox quru meyvə və dənli bitkilərdən hazırlanmış çərəzlər düzülür. Axır Çərşənbə üçün hazırlıqlar görür. Qızgəlinlər böyük sevinclə şirniyyat hazırlayır. Həmin gün xeyli boy atmış Səməninin ortasına qırmızı qumaş bağlanır.

Dörd ilahi başlanğıcdan üçüncüsü olan Yel Çərşənbəsində Yel Babanın şərəfinə xüsusi mərasimlər və ayinlər keçirilir. Yellə bağlı nəğmələr və bayatılar söylənilir. Yel Çərşənbəsi ilə bağlı inanclar maraq doğurur. İnanclara görə, Yel Çərşənbəsində ağaclar oyanar. Yel Çərşənbəsində söyüd ağacının altından keçərlər ki, niyyətləri qəbul olsun. Yel Çərşənbəsində Yel Babanı köməyə çağırarlar. Yel Baba xırmana gəlməmişdən öncə, oradan buğda və dən götürməzlər. Azərbaycan mifoloji mətnlərində Yelin xeyirxah obrazına rast gəlinir. "Dünyada nə ki yel, külək var, hamısının ixtiyarı Yel Babanın əlindədir", - deyilir. Xırman sovrulanda, camaat Yel Babanı köməyə çağırıb deyər: Yel Baba, gəl atına saman apar. Yel Baba da gəlib xırmanı sovurar. Dən qalar adamlara, samanı da Yel Baba aparar öz atına. "Yeli əsdirəni söyməzlər" - inancı da elə birbaşa yel tanrısının - yel ruhunun müqəddəsliyi anlamını özündə ehtiva etməklə, yelin gücünə olan inamın təsdiqi və təzahürüdür. Yel Çərşənbəsinin iliq nəfəsi Azərbaycan torpağına qədəm qoyan zaman, dünyanı gəzib-dolaşan Yel Babanın qədəmləri xalqımıza uğur gətirsin!

**ZÜMRÜD**

# Misirli politoloq: "Misir-Azərbaycan əlaqələrinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi üçün bütün imkanlar var"

***Misir-Azərbaycan əlaqələrinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi üçün bütün imkanlar mövcuddur. Bu fikri Misir Xarici Əlaqələr Şurasının üzvü, Qahirə Universitetinin Rusiya Araşdırmalar Mərkəzinin direktoru, professor Nurhan əl-Şeyx AZƏRTAC-ın xüsusi müxbirinə müsahibəsində ifadə edib.***




İki dost ölkə ilə əlaqələrin perspektivlərindən bəhs edən politoloq deyib: "Misir-Azərbaycan əlaqələri son otuz ildə xeyli inkişaf edib. Bu əməkdaşlıq özünün davamlılığı və qarşılıqlı hörmət ilə xarakterizə olunur. Ölkələrimiz arasında keçirilən Hökumətlərarası İqtisadi, Texniki və Elmi əməkdaşlıq üzrə Müştərək Komissiyanın iclasları, qarşılıqlı səfərlər əməkdaşlığın inkişafına təkan verib. Düşünürəm ki, Misir-Azərbaycan əlaqələrinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi üçün bütün imkanlar mövcuddur. Eyni zamanda, enerji, farmasevtika sənayesi, kənd təsərrüfatı, turizm və digər sahələrdə birgə sərmayələrin qoyulması və müştərək layihələrin həyata keçirilməsi mümkündür. Bu kontekstdə ötən il Süveyş Kanalı İqtisadi Zonasına, Misirin və Azərbaycanın investisiya mühitinə dair təqdimatlar keçirilməsi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) ilə Misirin İxracın İnkişafı Qurumu (EDA) arasında, AZPROMO ilə Misirin İnvestisiyalar və Azad Zonalar üzrə Baş Qurumu (GAFI) arasında anlaşma memorandumlarının imzalanması böyük əhəmiyyətə malikdir. 2008-ci ildə Qəlubiyyə vilayətində Misir-Azərbaycan dostluq parkının, parkda ümummilli lider Heydər Əliyevin abidəsinin və "Azərbaycan" küçəsinin açılışı olub. Misirin Qəlubiyyə və Cənubi Sinay vilayətləri Azərbaycanın Abşeron və Qəbələ rayonları ilə əməkdaşlıq haqqında sazişlər imzalayıblar".

İstər Yaxın Şərq regionunda və Afrikada, istərsə də Cənubi Qafqazda silahlı münaqişələrin həlli və onların qarşısının alınması ilə bağlı sualı cavablandıran Nurhan əl-Şeyx vurğulayıb: "Hər hansı bölgədə silahlı münaqişələrə son qoyulması sabitliyin və inkişafın əsas şərtidir. Bütün münaqişələrin, o cümlədən Dağlıq Qarabağ probleminin həlli, insanların sülh şəraitində yaşamasının təmin edilməsi həmin bölgədə rifaha xidmət edəcək. İnsanlar əsrlərboyu Cənubi Qafqazda sülh və qarşılıqlı anlaşma şəraitində yaşamağa can atıblar. Hesab edirəm ki, problemin kökü beynəlxalq hüquq normalarına məhəl qoymadan təcavüz aktının həyata keçirilməsi və bəzi güclərin regionda təsirini qoruyub saxlamasıdır".

Misirin Xarici Siyasət Şurasının üzvü kimi öz ölkəsinin xarici siyasət prioritetlərindən bəhs edən professor qeyd edib: "Misir müxtəlif regional və beynəlxalq güclər arasında balanslaşdırılmış xarici siyasət aparır, onların hər biri ilə əməkdaşlığı inkişaf etdirir. Ölkəmizin siyasətinin prioritet istiqamətlərindən biri də terrorizmlə mübarizədir. Misir hələ ötən əsrin sonlarından Qoşulmama Hərəkatında fəal iştirak edir və bu yaxınlarda Bakıda keçirilən Zirvə Görüşündə də təmsil olunub. Qahirə Yazın Şərq regionunda və Afrikada sülhün və sabitliyin təminatçısına çevrilməkdədir".

# Almazbek Atambayevin məhkəməsi qapalı keçiriləcək



Qırğızıstanın sabiq Prezidenti Almazbek Atambayevin məhkəməsi martın 23-də qapalı rejimdə keçiriləcək. Bunu jurnalistlərə açıqlamasında Bişkekin Pervomaysk rayon prokurorluğunun nümayəndəsi Temirbek Bekmamatov bildirib. O qeyd edib ki, sabiq Prezidentin işi üzrə 14 nəfər məsuliyyətə cəlb olunub. Onların arasında Qırğızıstan Prezident Aparatının sabiq rəhbəri Farid Niyazov, hazırkı və sabiq deputatlar, digər vəzifəli şəxslər var. Xatırladaq ki, ötən il avqustun 7-8-də sabiq Prezidentin tutulması ilə bağlı keçirilən əməliyyatda hər iki tərəfdən, ümumilikdə, 136 nəfər yaralanmış, bir xüsusi təyinatlı həlak olmuşdu.

# Biz rejimin mülki vətəndaşları öldürməsinə imkan verməyəcəyik



"Biz nə razılaşmalarımızdan geri addım atacağıq, nə də bu alçaq rejimin milyonlarla mülki vətəndaşı öldürməsinə imkan verəcəyik". SİA-nın məlumatına görə, bu sözləri Türkiyə Prezident Administrasiyasının İctimaiyyətlə Əlaqələr İdarəsinin rəhbəri Fəxrəddin Altun "Twitter" hesabındakı paylaşımında qeyd edib.

Altun bildirib ki, Əsəd rejimi bölgədə həddindən artıq xaosa və məhvə səbəb oldu. Türkiyə gözünün qarşısında humanitar fəlakətin yaşanmasını izləyə bilməz: "Rejimin İdlibdəki təcavüzkar mövqeyi onun etibarlı olmadığını, qarşısı alınmalı və etdiklərinə görə məsuliyyətə cəlb edilməli olduğunu göstərir. Rejim vətəndaş müharibəsi başlayandan bəri bütün razılaşmaları pozub, öz vətəndaşlarını öldürüb və bütün əxlaqi dəyərləri pozub".

# Səudiyyə Ərəbistanında iki müqəddəs məscid yenidən ziyarətə açılıb

Səudiyyə Ərəbistanı Məkkədəki Məscidül-Həram və Mədinədəki Məscidi-Nəbəvini dezinfeksiyadan sonra yenidən ziyarətə açıb. AZƏRTAC xəbər verir ki, bu barədə Əl-Əxbariyyə telekanalı məlumat yayıb.



Telekanalın məlumatına görə, həmin məscidlərdə koronavirusa beş yoluxma halı qeydə alınmışdı. Bundan sonra hər iki müqəddəs məscid bağlanılıb və dezinfeksiya işləri aparılıb. Fevralın sonunda isə Səudiyyə Ərəbistanı koronavirusun yayıldığı ölkələrdən zəvvarların ölkəyə girişini qadağan edib. Bu qərar Körfəz Əməkdaşlığı Şurası ölkələrinə də şamil olunub. Hazırda hər iki müqəddəs məscidi yalnız Səudiyyə Ərəbistanı vətəndaşları ziyarət edə bilirlər.

# Ənənəvi müxalifət niyə naftalin qoxusu verir?




***Bütün seçkisonrası proseslərdə olduğu kimi, bu dəfə də radikal təmayüllü müxalifət siyasi uğursuzluğu ilə barışmalı olub. Daha dəqiq desək, sözügedən düşərgənin süstlüyü, artıq göz önündədir və oradakı partiyalar, necə deyərlər, öz qınlarına çəkilib növbəti siyasi-ictimai proseslərə qədər ayaqda qalmağa cəhd göstərirlər. Bu kimi "yaşam" tərzində isə "liderlərin" dadlarına çatan sosial şəbəkələrdir ki, məhz feysbuk, tvitter kimi şəbəkələrdə "var" olduqlarını göstərməyə çalışırlar.***

Düzdür, ictimai rəy onsuz da bu cür zəif, lüzumsuz və qeyri-səmərəli müxalifəti qəbul etmir. Ancaq "Milli Şura", AXCP, Müsavat və s. ənənəvi düşərgə partiyalarının rəhbərliyi hələ də özlərini aldadaraq, guya ölkənin ictimai-siyasi həyatında "mühüm fərd" olduqlarını sanırlar, zorla ictimai rəyə sırınmağa cəhdlər göstərirlər.

Eləcə də, seçkilərdə "boykotçuluq" taktikasının onların istədikləri nəticəni verməməsi partiyalar daxilində ciddi etirazlara səbəb olmaqdadır. Belə ki, AXCP, Müsavat və s. partiyaların daxilində olan tərəfdarları seçkilərə qatılaraq uduzmağın daha normal məğlubiyyət olduğunu deyir, partiya rəhbərliyini özlərini xalqdan təcrid etməsində ittiham edirlər.

Halbuki təkcə "Milli Şura"nı götürsək, bu qurumun, hətta ona üzv olmayan digər siyasi qurumların iştirakı ilə belə, birgə normal aksiya və mitinq keçirə bilməməsi qeyd olunan reallığı kifayət qədər isbatlamış olur. Görünür, bu kimi reallıqların arxasında dayanan naftalin iyi verən müxalifət" frazası da buna aiddir.

## "Əvvəlki formatlarına qayıdıblar"

Bu arada, "Ağ Partiya"nın sədri, Tural Abbaslı baş verənlərə münasibətini aşıqlayarkən deyib ki, müasir siyasətdə boykot heç bir halda mübarizə yolu olaraq qiymətləndirilə bilməz. Yəni boykot, bilavasitə zəifliyin aşkar əlamətidir.

"Bu, nə hüquqi, nə də siyasi baxımdan doğrudur. Bunun nə cəmiyyətə, nə də müxalifətə faydası var" deyən müxalifətçi partiya sədrinə görə, adamlar, yəni Əli Kərimli, İsa Qəmbər, Arif Hacılı, Cəmil Həsənli və başqaları uzun illərdir siyasətlə məşğuldurlar, amma mübarizə aparmaq əvəzinə qaragüruhçuluq yolunu seçirlər: "Sadəcə olaraq, qarqgüruhçuluq onların öz bacarıqsızlıqlarını və fəaliyyətsizliklərini ört-basdır etmək üçün bir bəhanədir. Uzun illərdir hər biri siyasi partiyalara rəhbərlik edirlər, amma heç vaxt da bu təşkilatlar seçkilərə hazır olmur. Bunu gizlətmək üçün ya boykot edirlər, ya da siyasi taftalogiya ilə məşğul olurlar. Hətta aktiv siyasi mübarizə aparanları da ittiham etdilər. Özləri isə candərdi aksiyalar keçirdilər. Bu aksiyalar çox az insanı əhatə etdi. Buna görə də, mitinqləri dayandırdılar. Artıq əvvəlki formatlarına qayıdıblar".

T.Abbaslı da hesab edir ki, məhz bu cür üsullarla müxalifətdə qalmaq, hətta düşərgədə monopoliya yaratmaq istəyənlər bu maraqlarının arxasında digər məqamları güdürlər - düşərgədə təmsil olunmaqla siyasi biznes qurmaq və müəyyən xarici təşkilatların verdikləri sifarişləri yerinə yetirib, pul-para qazanmaq. Eləcə də, müxalifət düşərgəsinə qatılmaq istəyində olan yeni qüvvələrin qarşısını hansı vəchlə olsun almaq "liderlərin" başlıca məqsədlərindən biridir. Onun sözlərinə görə, belələrinin planları da müxalifət adına ortaya çıxmaq istəyən siyasi qüvvələrə, şəxslərə imkan verməməkdir: "Bu yolla da öz "bazarlarına" sahib olmaq istəyirlər. Bu insanların özləri öz potensiallarına, qələbə qazanacaqlarına inanmırlar, xalqın onlara etimad edəcəklərinə də inamları yoxdur. Həmin insanlar üçün "müxalifətçilik" biznesdir, yaşam mənbəyidir".

Beləliklə, T.Abbaslıya görə, radikal müxalifət daxilindəki süstlük təsadüfi deyil və bu, dağıdıcı müxalifət "liderlərinin" fəaliyyətsizliyi ilə əlaqələndirilə bilər: "Uzun illər bu adamların arasında olmuşam. Onların əksəriyyəti 50-60 yaşdan yuxarı insanlardır. Yəni onlar həm fiziki, həm də psixoloji baxımdan mübarizə əzmində deyillər. Onları mübarizə yox, yaxşı yaşamaq, komfortlu həyat maraqlandırır. Bilirlər ki, mübarizə zəhmət, əziyyət tələb edir. Bu yükün altına girmədikləri üçün də müxalifət daxilindəki prosesləri maksimum ölü nöqtədə saxlamaq istəyirlər. Buna görə də, boykot yolunu seçirlər. Özlərini əziyyətə salmaq istəmirlər, bugünkü vəziyyətlə barışıblar və öz məişət məsələlərini həll etməklə məşğuldurlar".

Görünən isə budur ki, əslində, düşərgədəki köhnə və nimdaş müxalifət partiyalarının "liderlərini", haqlı olaraq, ittiham edən T.Abbaslı belə siyasi qurumların tarixin arxivinə atılması vacibliyinə eyham vurur. Hətta qənaətə gəlmək olar ki, yaxın zamanlarda istər "Ağ Partiya", istərsə də bu kimi digər yeni yaradılmış müxalifət partiyaları köhnələri siyasi arenadan çıxdaş edəcəklər. Daha dəqiqi, çox yaxın vaxtlarda, bütövlükdə, müxalifət düşərgəsində ölüm-qalım savaşına start veriləcək. Bu savaşdan hansılarının sağ-salamat çıxacaqlarını isə zaman göstərəcək...

***Rövşən RƏSULOV***

# Bu gün bəzi bölgələrdə 20 dərəcə isti olacaq



Azərbaycanda martın 7-nə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Cənub-şərq küləyi əsəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 6-9°, gündüz 11-14°, Bakıda gecə 7-9°, gündüz 12-14° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 770 millimetr civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 50-55 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 4-8°, gündüz 15-20°, dağlarda gecə 2-7°, gündüz 10-15° isti olacaq. Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, martın 7-də Abşeron yarımadasında meteoroloji amillərin zəif tərəddüdü meteohəssas insanlar üçün əlverişlidir.

Naxçıvan Muxtar Respublikasında hava əsasən yağmursuz keçəcək. Lakin səhər və axşam bəzi yerlərdə yağış, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5°, gündüz 14-19° isti olacağı ehtimal edilir.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 2-7°, gündüz 10-15° isti olacağı ehtimalı var.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər ayrı-ayrı yerlərdə duman, çiskin olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturu gecə 3-7°, gündüz 13-18° isti olacaq.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 2-7°, gündüz 12-17° isti, dağlarda gecə 0-5°, gündüz 10-14° isti olacağı gözlənilir.

Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 4-8°, gündüz 15-20° isti olacağı proqnozlaşdırılır.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Səhər dağlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 5-8°, gündüz 12-17° isti, dağlarda gecə 5-8°, gündüz 12-17° isti olacağı bildirilir.



# Çingiz Qənizadə əski keçmişinə qayıdır

**İLHAM**

Eşitmişik, həm də oxumuşuq ki, insan yaşlaşdıqca, müdrikləşər, nurani görkəm alar. Bu halda, danışanda sözünü bilər, oturanda ədəb-ərkanı ilə seçilər. Amma nə yazıqlar ki, günümüzün reallığında yaşlaşmaqda olan elə insanlar var ki, bir növ ömrünün qürub çağı olmağına baxmayaraq, utancverici danışığı, hərəkətləri ilə tanınır. Elə uzağa getməyək, zamanında qondarma hüquq müdafiəçisi kimi tanınmış, sonradan deputat statusu ilə var-gəl edən və nəhayətdə, yenidən əski mövqeyinə qayıdan Çingiz Qənizadəni misal olaraq, göstərmək olar. Ç.Qənizadənin tərcümeyi-halına nəzər yetirdikdə, bəlli olar ki, bu şəxs qaranlıq keçmişə malikdir. AXC-Müsavat hakimiyyəti dönəmində Bakı şəhər prokuroru işlədiyi zaman Ç.Qənizadə yuxarılardan verilən göstəriş və tapşırıqlara əsasən, vətənpərvər, dövlətçilik və milli maraqlar uğrunda mübarizə aparan ziyalılara, elm adamlarına, ictimai-siyasi xadimlərə qarşı qəddarlığı ilə seçilib. Hətta xalqın çağırışı və istəyi ilə yaradılmaqda olan Yeni Azərbaycan Partiyasının təşkilatlanmasına, formalaşmasına qarşı Ç.Qənizadə əngəllər yaratmağa çalışıb. O, partiya qurucularına qarşı repressiv əməlləri ilə AXC-Müsavat iqtidarının gözündə yüksəlməyə cəhd edib. YAP-ın tanınmış simalarından olmuş Zahid Qaralovu, Siruz Təbrizlini və digərlərini şərləyən Ç.Qənizadə onların incidilməsinə və apardıqları mübarizədən yayındırmağa çalışmışdır. Amma bütün cəhdlərinə baxmayaraq, onun bəd əməlləri elə özünün başında çatladı, AXC-Müsavat hakimiyyəti tarixin zibilliyinə atıldı. Sonradan hüquq müdafiəçisi rolunda çıxış edən Ç.Qənizadə hakimiyyətə yarınmaq üçün müxtəlif məlum əməlləri ilə diqqət mərkəzinə çevrilməyə çalışmışdı. Bu yolda keçmiş silahdaşlarını "baqaja" qoymaq, onları keçi qiymətinə satmaqdan da çəkinməmişdi. İstək və arzusu təsadüf nəticəsində, Milli Məclisə deputat seçilməklə, reallaşdı. Ancaq bəlli olan fakt ondan ibarətdir ki, İmişli-Beyləqan seçiciləri parlamentdə təmsilçiləri olan Ç.Qənizadənin fəaliyyətindən narazı qalıblar. Məhz buna görə də, insanlar 9 fevral parlament seçkiləri zamanı yenidən İmişli-Beyləqan seçki dairəsində peyda olan Ç.Qənizadə ilə ünsiyyət qurmaq, görüşlər keçirməkdən yayınıblar. Dəfələrlə insanlar əllərinə çomaq götürüb, onu kənd-kəsəkdən də qovublar. Ç.Qənizadə isə, deputat mandatına yenidən yiyələnmək üçün seçicilərin sərt təpkisinə, irad və tənələrinə baxmayaraq, öz seçki marafonunu davam etdirmişdir. Arzusuna çatmaq üçün o, müxtəlif şirniklən-dirici metodlardan, qanunsuz əməllərdən və digər qeyri-ənənəvi vasitələrdən də bəhrələnməkdən çəkinməmişdir. Təbii ki, bu, yolverilməzdir, Seçki Məcəlləsinin tələblərinə tam ziddir. Məhz buna görə də, Mərkəzi Seski Komissiyası Ç.Qənizadənin namizədi olduğu 80 saylı İmişli-Beyləqan Seçki Dairəsinin nəticələrinin ləğv edilməsi barədə qərar qəbul edib. MSK-nın bu qərarından sonra, Ç.Qənizadənin əsl sifəti bəlli olub. Bütün fəaliyyətini cəmiyyətdə tanınan nüfuzlu şəxsləri ləkələməyə, onları şər və böhtanları ilə hörmətdən salmağa çalışan Ç.Qənizadə, hətta dövlət tədbirlərində baş verən anlaşılmazlıqları da qlobal problem kimi qabardıb, özünü mətbuatın gözündə yüksəltməyə çalışıb. Məsələn, iddia edib ki, 2018-ci ildə İspaniyanın paytaxtı Madriddə "Dinlərarası dialoqun sülhə və qarşılıqlı anlaşmaya töhfəsi" mövzusunda keçirilən beynəlxalq konfrans zamanı baş verən məlum hadisələrdə Bakı Dövlət Universitetinin keçmiş rektoru Abel Məhərrəmovun günahı olub. Araşdırmalar zamanı isə, məlum olub ki, Ç.Qənizadənin bu məsələ ilə bağlı danışdıqları cəfəngiyyatdan başqa bir şey deyil. Birincisi, ona görə ki, Ç.Qənizadə sözügedən tədbirin əsas iştirakçısı olmadığından, orada nələrin baş verdiyindən və hansı məsələlərin nümayəndə heyətinin üzvləri arasında müzakirə edildiyindən xəbərdar ola bilməzdi. Çünki həmin tədbir dövlət tədbiri olduğundan, Madriddə də, məhz məlum şəxslər gedib ki, onların da sırasında Ç.Qənizadə olmayıb. Ç.Qənizadə, sadəcə, özünün təşəbbüsü ilə yüngül əxlaqlı qadınla birlikdə tədbirdə peyda olub və oradan da Türkiyəyə gedib. Sonradan onun ağzıgöyçəklik edərək, Madriddə baş verən məlum hadisələr haqda özünün prizmasından TV-lərə və qəzetlərə açıqlamalar verməsi yalnız və yalnız türkiyəli iş adamı "Evsen" Fondunun rəhbəri Eli Evsenin ona verdiyi 30 min avronun qarşılığında olub. Bu məsələdə Eli Evsenin marağının nədən ibarət olduğu başqa söhbətin mövzusu olduğu üçün məsələnin üzərində çox dayanmaqdan uzağıq. Ancaq onu, birmənalı şəkildə, bildirmək vacibdir ki, Ç.Qənizadə öz ağlı ilə Madrid hadisələrinə şərh verməyib.

# Beynəlxalq humanitar hüququn tətbiq sahələri və Azərbaycan

***Beynəlxalq humanitar hüququn təsir sahəsi dövlətlərarası münasibətlərdir. Həmin münasibətlərə təsir göstərmək, onların müəyyən nizama, qaydaya salmaq üçün isə hüquq tətbiq olunmalıdır. Beynəlxalq humanitar hüququn tətbiqinin, ənənəvi olaraq, üç forması (vəziyyətə görə, zamana görə, şəxsə görə tətbiqi) Beynəlxalq humanitar hüququn tətbiqinin bu bölgüsü K.Svinarski tərəfindən də qəbul edilir. İ.İ.Lukaşukun mövqeyi də maraq doğurur. O, göstərir ki, "beynəlxalq humanitar hüquq hərbi əməliyyatların harada baş verməsindən asılı olmayaraq tətbiq olunur. Bununla belə onun tətbiq sahəsinin ərazi aspektləri də vardır". Bu nöqteyi-nəzərdən beynəlxalq humanitar hüququn tətbiqini bu dörd cəhətini fərqləndirmək məqsədəmüvafiqdir. İlk növbədə, qeyd etmək lazımdır ki, beynəlxalq humanitar hüquq münaqişələrin mənşəyi və xarakterindən və ya tərəflərin irəli sürdüyü səbəblərdən asılı olmayaraq, bütün silahlı münaqişələrə tətbiq olunur.***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Beynəlxalq humanitar hüququn bəzi hallarda, müharibə hüququ adlandırılmasına baxmayaraq, Cenevrə Konvensiyaları və onlara Əlavə Protokollar silahlı münaqişə termininin işlədilməsinə daha üstünlük verir. Bu, hər şeydən əvvəl, "müharibə" anlayışının "silahlı münaqişə" anlayışına nisbətən dar həcmə malik olması ilə əlaqədardır. Belə ki, müxtəlif dövlətlər arasında baş verən silahlı münaqişələr çox vaxt müharibəyə səbəb olmur. Digər tərəfdən isə, daxili silahlı münaqişələrə beynəlxalq humanitar hüquq tətbiq olunduğu halda, bu münaqişələr çox vaxt müharibələrə çevrilir. Beynəlxalq humanitar hüququn silahlı münaqişə anından tətbiq olunmağa başlanmasına baxmayaraq, Cenevrə Konvensiyaları və ona Əlavə Protokollar silahlı münaqişənin dəqiq anlayışını vermir. Beynəlxalq humanitar hüququ qüvvə tətbiq olunmasının səbəbləri maraqlandırmır. Ona görə də, silahlı qüvvənin tətbiqinə bəraət qazandıran halların olub-olmaması və ya onlardan açıq təcavüz üçün istifadə edilməsi beynəlxalq humanitar hüququn tətbiqi üçün əhəmiyyət kəsb etmir. Hücuma məruz qalmış tərəfin müqavimət göstərib-göstərməməsi də əhəmiyyətli deyildir. Beynəlxalq humanitar hüquq nöqteyi-nəzərindən Konvensiyaların tətbiqi məsələsi çox sadə həll olunur: bir dövlətin silahlı qüvvələrinin əlinə digər dövlətin silahlı qüvvələrindən yaralı və ya əsir, yaxud digər dövlətin mülkü əhalisi düşdükdə, yaxud bir dövlət digərinin ərazisinin müəyyən hissəsi üzərində nəzarti həyata keçirməyə başladıqda onlar dərhal humanitar hüquq normalarına riayət etməyə başlamalıdırlar. Yaralı və hərbi əsirlərin sayı, işğal edilmiş ərazinin sahəsi əhəmiyyət kəsb etmir, çünki mühafizənin zəruriliyi say kriteriyasından asılı deyildir. Silahlı münaqişə anlayışı ilə əlaqədar Yuqoslaviya Beynəlxalq Cinayət Tribunalının izahı da diqqəti cəlb edir. "İttihamçı Duşko Tadiçə qarşı" işi üzrə Apellyasiya Palatasının qərarında Məhkəmə qeyd etmişdir ki, "dövlətin qüvvəyə müraciət etdiyi və ya bir dövlət daxilində hökumət qüvvələri ilə mütəşəkkil silahlı qruplar və ya bu cür qruplar arasında davam edən silahlı münaqişə olduğu hər bir halda silahlı münaqişə mövcuddur". K.Svinarski beynəlxalq humanitar hüququn norma və prinsiplərinin tətbiq olunmasının dörd vəziyyətini fərqləndirir. Müəllif beynəlxalq və qeyri-beynəlxalq silahlı münaqişələrdə beynəlxalq humanitar hüquq normalarının, bilavasitə tətbiq olunmasını, daxili nizamsızlıq və daxili gərginlik zamanı isə bu hüququn yanakı və ya analogiya üzrə tətbiqini qeyd edir.

Beynəlxalq silahlı münaqişələr zamanı dörd Cenevrə Konvensiyası və I Əlavə Protokol tətbiq olunur. Bu tətbiq sahəsi bütün Cenevrə Konvensiyaları üçün ümumi olan 2-ci maddənin müddəalarından irəli gəlir. Burada göstərilir ki, "dinc dövrdə tətbiq edilməli müddəalara əlavə olaraq, bu Konvensiya iki və ya daha çox Razılaşmış Yüksək Tərəf arasında baş verə bilən müharibə və ya hər hansı digər silahlı münaqişə hallarına, hətta tərəflərdən biri müharibə vəziyyətini tanımasa belə, tətbiq edilir. Konvensiya, həmçinin, Razılaşmış Yüksək Tərəflərdən birinin ərazisinin qismən və ya tamamilə işğal olunduğu bütün hallara, hətta bu işğal heç bir silahlı müqavimətlə qarşılaşmasa belə, tətbiq edilir. Münaqişədə iştirak edən dövlətlərdən biri bu Konvensiyanın iştirakçısı olmasa belə Konvensiyanın iştirakçısı olan dövlətlər öz qarşılıqlı münasibətlərində Konvensiya ilə bağlı qalacaqlar. Həm də onlar yuxarıda göstərilən dövlət barəsində Konvensiya ilə o halda bağlı olacaqlar ki, həmin dövlət Konvensiyanın müddəalarını qəbul və tətbiq etsin". Bu maddənin məzmunundan bir daha aydın olur ki, Cenevrə Konvensiyaları iştirakçılan arasında baş vermiş hər hansı silahlı toqquşma, onun miqyasından asılı olmayaraq, həmin beynəlxalq hüquqi aktların təsiri altına düşür. Cenevrə Konvensiyalarının kommentariyasında göstərilir ki, münaqişənin davametmə müddəti, dağıdıcılıq təsiri, qurbanların sayından asılı olmayaraq, dövlətlər arasında baş verən və silahlı qüvvələrin tətbiqinə səbəb olan hər hansı bir mübahisə 2-ci maddənin mənasına görə silahlı münaqişə hesab olunur. İnsan şəxsiyyətinə hörmət qurbanların sayı ilə ölçülmür. Bir yaralının, bir gəmi qəzasına düşənin və ya bir hərbi əsirin olması da kifayətdir. Beynəlxalq silahlı münaqişə anlayışı obyektiv xarakter daşıyır və tərəflərin bu münaqişədə münasibətindən asılı deyildir. Burada bir məsələyə də diqqət yetirilməsi məqsədəmüvafiqdir. 2-ci maddədə tərəflərdən birinin müharibəni etiraf etdiyi halda Cenvrə Konvensiyalarının tətbiqi zəruriliyi qeyd olunur. Bu da hər iki tərəfin müharibə vəziyyətini etiraf etmədiyi halda beynəlxalq humanitar hüququn tətbiqi məsələsini şübhə altına alır. Cenevrə Konvensiyasının kommentariyasında bu məsələyə aydınlıq gətirilərək göstərilir ki, Cenevrə Konvensiyaları dövlətlərin maraqlarını deyil, silahlı münaqişə qurbanlarının mühafizəsini nəzərdə tutduğuna görə, hər iki dövlətin müharibə vəziyyətini etiraf etməməsi beynəlxalq humanitar hüququn tətbiqinə heç bir maneçilik törətməməsidir. 2-ci maddədə öz əksini tapmış müddəalardan biri də ondan ibarətdir ki, münaqişədə olan bir tərəf digərinin ərazisinin bir hissəsi üzərində hakimiyyətini həyata keçirməyə başladıqda, Cenevrə Konvensiyaları tətbiq olunmalıdır. Bu zaman işğal edilmiş ərazinin miqyası deyil, həm də ərazidə həyata keçirilən hakimiyyətin doğurduğu nəticələr (himayədə olan şəxslər, onların əmlakı ilə rəftar) əsas götürülür. Cenevrə Konvensiyaları, işğal heç bir silahlı müqavimətlə rastlaşmadığı halda da tətbiq olunmur. Bu müddəa BMT təcrübəsində də ifadəsini tapıb. Beynəlxalq Məhkəmə 1971-ci il məsləhətverici rəyində Namibiyanı Cənubi Afrikanın işğalını münasibətdə bir sıra humanitar Konvensiyaların məcburi qüvvəsini tanımışdır. Baş Məclis 1980-ci il Qərbi Saxara haqqında qətnaməsində (35/19) Mərakeş qüvvələrinin Qərbi Saxarada olmasını hərbi işğal kimi qiymətləndirmişdir. Beləliklə, Cenevrə Konvensiyaları üçün ümumi olan 2-ci maddənin məzmunundan aydın olur ki, beynəlxalq xarakterli silahlı münaqişə hallarında beynəlxalq humanitar hüquq, aşağıdakılardan asılı olmayaraq tətbiq olunmalıdır: müharibənin elan edilib, edilməməsindən (yəni beynəlxalq humanitar hüquq, faktiki olaraq, gücdən istifadə edildiyi andan tətbiq olunmağa başlayır); tərəflərin müharibə vəziyyətini etiraf edib-etməməsindən; tərəflərin birinin ərazisinin bütünlüklə və ya bir hissəsinin işğal olunmasından; -hücuma məruz qalan tərəfin müqavimət göstərib-göstərməməsindən.

1977-ci ilə kimi beynəlxalq humanitar hüququn tanıdığı iki kateqoriya silahlı münaqişələr üçün fərqləndirici əlamət dövlət sərhədi hesab olunurdu. İki və daha artıq dövlət arasında müharibələr beynəlxalq xarakterli münaqişələr, bir dövlətin ərazisi hüdudlarında baş verən silahlı münaqişələr isə qeyri-beynəlxalq xarakterli silahlı münaqişələr (daxili münaqişə və ya vətəndaş müharibəsi) adlanırdı. Cenevrə Konvensiyalarına I Əlavə Protokol qəbul edildikdən sonra milli azadlıq müharibələri beynəlxalq silahlı münaqişə hesab olunur. I Əlavə Protokolun 1-ci maddəsinin 4-cü bəndinə əsasən, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə və "Dövlətlər arasında dostluq münasibətlərinə və əməkdaşlığa dair beynəlxalq hüquq prinsipləri haqqında" bəyannamədə təsbit edilmiş öz müqəddəratını təyin etmək hüququnu həyata keçirmək məqsədilə xalqların müstəmləkə azadlığına, xarici işğala və irqi rejimlərə qarşı mübarizə apardıqları silahlı münaqişələr də beynəlxalq münaqişələrə aid edilmişdir. Beləliklə, I Əlavə Protokol beynəlxalq xarakteli silahlı münaqişələr anlayışının dairəsinə bir dövlətin ərazisi hüdudlarında baş verən münaqişələri də şamil etmişdir. Bu cür münaqişələr zamanı 12 avqust 1949- cu il tarixli dörd Cenevrə Konvensiyası və 8 iyun 1977-ci il tarixli I Əlavə Protokol tətbiq olunur. Bəzi müəlliflər belə hesab edirlər ki, bu növ müharibələrin beynəlxalq silahlı münaqişə xarakteri alması BMT Nizamnaməsində əsas prinsip kimi nəzərdə tutulmuş xalqların müqəddəratını təyin etməsinin müasir beynəlxalq münasibətlərin əsası kimi təfsir edilməsinin nəticəsidir.

1991-ci ilin sonu, 1992-ci ilin əvvəlində Sovet İttifaqının parçalanması və Azərbaycanda daxili çəkişmələr nəticəsində yaranmış siyasi qeyri-sabitlikdən istifadə edərək, Ermənistan xarici hərbi yardımla Dağlıq Qarabağda hərbi təcavüzə başladı. 1992-ci ilin fevral ayında Xocalı şəhərində azərbaycanlı əhaliyə qarşı misli görünməmiş qırğın törədilmişdir. Xocalı soyqırımı kimi tanınmış bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, yaxud əsir düşməsi ilə nəticələnmiş, şəhər yerləyeksan edilmişdir.

1992-ci ilin may ayında Şuşa şəhəri və Ermənistanla Dağlıq Qarabağ arasında yerləşən Laçın rayonu işğal edilmişdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri Azərbaycanın Dağlıq Qarabağ ətrafındakı daha altı rayonunu - Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarını işğal etdilər. 30 aprel 1993-cü il tarixində BMT Təhlükəsizlik Şurası Azərbaycanın Kəlbəcər rayonundan və digər işğal olunmuş ərazilərindən bütün işğalçı qüvvələrin dərhal çıxarılmasını tələb edən 822 saylı qətnamə qəbul etdi.

29 iyul 1993-cü il tarixində BMT Təhlükəsizlik Şurası Azərbaycanın Ağdam rayonu və digər işğal olunmuş ərazilərindən işğalçı qüvvələrin tam, dərhal və qeydşərtsiz çıxarılmasını tələb edən 853 saylı qətnamə qəbul etdi. 14 oktyabr 1993-cü il tarixində BMT Təhlükəsizlik Şurası ATƏM-in Minsk Qrupunun, nizamasalmaya dair vaxt cədvəlinə uyğun olaraq, dərhal qarşılıqlı və zəruri addımlar atılmasını, o cümlədən, ən son işğal edilmiş ərazilərdən çəkilməyi tələb edən 874 saylı qətnamə qəbul etdi.

11 noyabr 1993-cü il tarixində BMT Təhlükəsizlik Şurası 884 saylı qətnamə qəbul etdi. Qətnamə Zəngilan rayonu və Horadiz qəsəbəsinin işğalını, mülki əhaliyə qarşı hücumu və Azərbaycan Respublikası ərazilərinin bombalanmasını pisləmiş, Zəngilan rayonu və Horadiz qəsəbəsindən işğalçı qüvvələrin birtərəfli qaydada çıxarılmasını və Azərbaycan Respublikasının ən son işğal olunmuş digər ərazilərindən işğalçı qüvvələrin çıxarılmasını tələb edir.

**VAHİD ÖMƏROV,**
*fəlsəfə üzrə fəlsəfə doktoru*

# Haqq və ədalətin inkarı: “Freedom House”un qərəzli hesabatları

## *Yaxud Azərbaycan haqqında qərəzli hesabatları bu təşkilatın riyakarlığına dəlalət edir*

***Son illər dünyada gərginliyin, iqtisadi böhranın artdığı bir vaxtda Azərbaycanın bütün sahələr üzrə inkişafı, xüsusilə də, sabitliyin qorunub-saxlanması, əhalinin rifah halının daha da yaxşılaşdırılması, insan hüquq və azadlıqlarının müdafiəsi, həmçinin, azad sözün və müstəqil mətbuatın sərbəst fəaliyyəti istiqamətində qətiyyətli addımlar atması anti-Azərbaycan qüvvələri ciddi narahat edib. Onlar ölkəmiz haqqında beynəlxalq ictimaiyyətdə mənfi rəy formalaşdırmaq üçün yenə də yalan, böhtan və qarayaxma “maşınlarını” işə salıblar.***

Belə ki, müstəqillik yolunda 29 illik təcrübəsi olan Azərbaycanın Avropanın və dünyanın bəzi ölkələrini bir sıra sahələrdə geridə qoyması, respublikamızın mötəbər beynəlxalq təşkilatların öz tədbirlərini keçirdiyi məkana çevrilməsi bu inkişafı gözü götürməyənləri, deyəsən, qorxuya salıb. Anti-Azərbaycan qüvvələr muzdlu beynəlxalq təşkilatları yenə də ortaya atıblar. Həmişə olduğu kimi, bu dəfə də “Freedom House” təşkilatından bir vasitə kimi istifadə edirlər.

“Freedom House” beynəlxalq hüquq-müdafiə təşkilatı martın 4-də dünyada insan hüquqlarının vəziyyəti haqqında illik hesabatını dərc edib. Hesabatında bu qondarma qurum Azərbaycanı yenə də “azad olmayan” ölkələr sırasında verib. Görünür, alışdığı bu qərəzli ənənədən kənara çıxa bilmir. Məhz buna görə də, qərəzli və ikili standartlara uyğun qiymətləndirməsini edib. Ən gülüş doğuran məqam odur ki, bu qeyri-ciddi “müstəqil” təşkilat növbəti dəfə də Ermənistanı “qismən azad””, Azərbaycanı isə “qeyri-azad” ölkə kimi təqdim edib. Bu oxunan “mahnı” və oyunbazlıq bizə məlumdur. Görünür ki, Qərbdəki bəzi dairələr ədalət hissini və rasionallığı, tamamilə itiriblər. Onlar adi məntiqi səhvlərə də yol verirlər. Əslində, bu gözlənilən haldır. Çünki başqası haqqında hədyan danışanın nə yaddaşı ola bilər, nə də sağlam məntiqi; mütləq silsilə səhvlər etməlidir. “Freedom House” da bu sıraya aiddir.

Hesabatda, həmçinin, bu il ölkə parlamentinə keçirilən seçkilərə toxunulur. “Aparıcı” müxalif qüvvələrin bir hissəsinin seçkiləri “boykot” etdiyi vurğulanır. Hakim Yeni Azərbaycan Partiyasının 125 yerlik parlamentdə 71 deputat mandatı əldə etdiyinə işarə olunur. Hesabatda o da bildirilir ki, Milli Məclisə, həmçinin, hakim partiyanı dəstəkləyən 41 müstəqil namizəd və kiçik partiyalardan 12 nəfər keçib.

Bu yerdə sual etmək istərdim: nəyə əsaslanıb bunu yazırsınız? Bir də “demokratiya”dan dəm vuran təşkilatın hesabatları hər bir ölkədə vəziyyəti düzgün qiymətləndirməli, demokratiya və hüququn aliliyi prinsiplərinin qorunmasına xidmət etməlidir. Ancaq bu, həqiqətdir ki, “Freedom House” qarşısına başqa məqsəd qoyub və obyektiv gerçəkliyi əks etdirmək əvəzinə, qərəzli və yalan məlumatlar əsasında hər zaman Azərbaycanın mənfi imicini formalaşdırmağa cəhd göstərir. Seçkilərlə bağlı verilən bəyanat da üzdəniraq təşkilatın Azərbaycana qarşı qərəzli xislətini bir daha göstərir. Çünki bu təşkilatın artıq qeyri-ciddi imici formalaşıb. Əvvəlki seçkilərdə olduğu kimi, bu seçkilər keçirilib başa çatmamış, artıq seçkinin nəticələri ilə bağlı böhtan dolu bəyanat hazırlayırlar. Əgər xatırlasaq ki, ötən prezident seçkilərində də “Freedom House” ölkədə seçkilərin şəffaf keçirilmədiyi ilə bağlı uydurma hesabat hazırlayaraq yaymışdı.

“Freedom House”un qərəzli hesabatı ölkəmizdə ciddi narazılıqla qarşılanıb. Hakimiyyəti düşərgəsi nüfuzlu beynəlxalq təşkilatın qərəzli olduğunu bildirir, onun ittihamlarını qəbul etmir.

### Aydın Mirzəzadə: “Freedom House”un hesabatı qərəzli olmaqla, bu təşkilatın özünün nüfuzu yoxdur”

YAP İcra Katibliyinin Siyasi təhlil və proqnozlaşdırma şöbəsinin müdiri, deputat Aydın Mirzəzadə “Freedom House”un hesabatının qərəzli olduğunu deyərək bildirib ki, hesabat ölkəmizdə ciddi narazılıqla qarşılanıb. Hakimiyyət beynəlxalq təşkilatın qərəzli olduğunu bildirir, onun ittihamlarını qəbul etmir: “Bu məlumatın formasından Azərbaycana qarşı bir qərəzlilik görünür. Ölkəmizi hansısa dövlətlərlə üz-üzə qoymaq, düşmənçilik toxumu səpmək əhval-ruhiyyəsi ortadadır. Yeni Azərbaycan Partiyası bütün ölkə üzrə təşkilatlanmış güclü siyasi bir birlikdir. Onun 700 mindən çox üzvü var. Partiya cəmiyyətin bütün sosial təbəqələrini əhatə edir. Onun fəallığı təkcə seçkilər dövründə olmur. Bütün dövrlərdə daima diqqəti çəkən formada ortada bir fəaliyyət var. Bizim partiyanın bu seçkilərdə də irəli sürdüyü namizədlər həm ölkə, həm də region səviyyəsində tanınmış, nüfuzlu və ziyalı şəxslər idi. Onların qələbələrindən hansısa bir xarici QHT-nin narahat olması başa düşülən deyil. Müstəqil namizədlərin iqtidaryönlü olduğunu demək nə dərəcədə düzgündür? Dairələrdə seçicilər onları dəstəkləyib parlamentdə görmək istəyiblər. Bütün ölkələrdə müstəqil şəkildə seçkilərə qatılıb parlamentdə təmsil olunan deputatlar var. Azərbaycan da bu sarıdan istisna deyil”.

A.Mirzəzadə. VI çağırış Milli Məclisə seçkilərin nəticələrini artıq Konstitusiya Məhkəməsinin təsdiq etdiyi qərarına kölgə salmaqla heç bir şey əldə olunmayacağını bildirib: “Qanunvericiliyə uyğun olaraq, hər beş ildən bir parlament seçkiləri keçirilir. Bu, kimisə seçmək üçün deyil. Daha çox səs toplayanın, etimad qazananın dövlət vəzifələrini yerinə yetirmək üçündür. Hesab edirəm ki, demokratiya və siyasi plüralizm hansısa bir QHT-nin xoşuna gəlmək üçün deyil, Azərbaycan xalqının dövlətçiliyini möhkəmləndirmək üçün vacibdir. Düşünürəm ki, 9 fevralda Azərbaycan cəmiyyəti öz iradəsini və növbəti 5 il üçün öz istəyini ortaya qoya bildi”.

A.Mirzəzadə “Freedom House”un kiçik partiyaların parlamentə keçmələri barədə dediklərinə də toxunub: “Siyasi partiyaları belə adlandırmaq, artıq siyasi mədəniyyətsizlikdir. Bu, siyasi etikanın olmamasının göstəricisidir. İstənilən qeydiyyatdan keçən bir partiya cəmiyyətin bir hissəsidir. Çalışırlar ki, ölkəmizdə olan ələltıları parlamentdə təmsil olunsunlar. Bu isə, heç bir zaman mümkün olmayacaq. Azərbaycan ona görə müstəqillik qazanmayıb ki, xaricdən müəyyən dairələrin istəyini yerinə yetirsin. Cəmiyyət hər seçkidən-seçkiyə öz iradəsini ortaya qoyur”.

Göründüyü kimi, bütün bunlar bir daha sübut edir ki, özünə beynəlxalq təşkilat statusu biçən “Freedom House” Qərb dövlətlərində baş verən hadisələrin üzərindən sakit keçir, ən yaxşı halda, kiçik bir münasibət bildirir. Bu təşkilatların ikili standartlar tətbiq etməsi, əlbəttə, məyusluq yaradır. Çox təəssüf ki, “demokratiya carçılarının “ əsl siması budur.

***R.HÜSEYNOVA***

---



# Gültəkin Hacıbəylinin dəyişilməyən xisləti

Gültəkin Hacıbəyli ilə bağlı bu informasiyanı oxuyanda heç də təəccüb etmədim. İnsanların haqqına girən, özünü “Milli Şura”nın “cəfakeş” üzvü adlandıran, müxalifətçi libası altında mənəviyyatsızlığını itirən G.Hacıbəyli kimi əxlaqsızları görəndə, içimdə olan nifrətimi bildirmək üçün söz axtarışı etdim, amma bir söz tapa bilmədim. Yenə də Azərbaycan leksikonunda və dəyərli ata-babalarımızın ibrətamiz sözlərinin köməkliyi ilə ürəyimdə olan nifrətimi içimdən çıxara bilirəm. Hay düşən kimi, özünü yuyulmamış qaşıq kimi ortaya atan G.Hacıbəyli indi də sosial şəbəkələrdən “parlament seçkiləri saxtakarlıqla keçirildiyi üçün yenidən seçkilər keçirilməlidi” çağırışları etməsini görəndə, onun kimilərin ünvanına nə desəm də, özümü günahkar saymayacağam.

### Dələduzluq “missiyasının” emblemi

Bəli, elə maraqlısı da budur ki, istər seçkiəvvəli, istərsə də seçkidən sonra dələduzluq “missiyası”nın emblemi G.Hacıbəyli “demokratiya boğulur”, “haqqınızı tələb edin” çağırışları etməklə, bir daha simasızlığını göstərməkdədir. Belə olan halda, soruşmaq istərdik ki, ay dələduz nankor, deputat seçildiyin dövrlərdə demokratiya boğulmurdu, indi bu gün belə böhtan deməklə özünü düşərgə sakinlərinin qarşısında “təmizə” çıxarmaq istəyirsən? “Deputat seçilmədiyin gündən bu günə kimi, 10 ildir ki, yerində sayan G.Hacıbəyli dələduz, satqın və mənəviyyatsızlar Ə.Kərimli, A.Hacılı, C.Həsənli, L.Yunus və bu kimi dələduzların yanında ola-ola, dəyişməsi mümkün deyil. Bir məqamı da anlamaq lazımdır ki, seçkilərin keçirilməsi zamanı müəyyən Qərb diplomatik nümayəndəliklərinə yalan məlumatlar verməklə, heç bir şeyə nail olmayıbsınız və bundan sonra da nail olmayacaqsınız. Çünki Azərbaycan hüquqi dövlətdir, hər kəs də qanunlara riayət etməlidir.

### Yalançı illüziyalarla haraya qədər...

Bu yolun uçurum, xalqın nifrətidir! Necə olur ki, 2010-cu ilə qədər deputat kürsüsündə oturanda, Milli Məclisin plenar iclasındakı çıxışlarında Azərbaycanın demokratiya yolunda addımladığını, ölkədə seçkilərin şəffaf və qanunlara uyğun keçirildiyini dönə-dönə deyirdin. Bu yerdə Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri millət vəkili Səməd Seyidov ölkədəki son proseslər barədə öz düşüncələrini qələmə alarkən, G.Hacıbəylinin nə qədər şəxsiyyətsiz, satqın olduğunu bildirib: “Nə qədər təəccüblü olsa da, bu insanların bir şəxsiyyət kimi xarakterik cəhətləri açıq-aydın oxşardır. Necə olur ki, G.Hacıbəyli beynəlxalq təşkilatlardakı görüşlərdə, konfranslarda, parlamentdə düz 10 il boyunca hakim partiyanın, hakimiyyətin adından çıxış edərkən, bu gün dediklərinin mənasını anlayırmı? Anlamır! Deməli, nə o vaxt, nə də bu gün danışdıqlarının mənasını heç anlamırmış!!. Bədbəxtçilik budur!”

Göründüyü kimi, S.Səmədov, həqiqətən, təhlükəli həddin ən azı G.Hacıbəylinin timsalında müşahidə edildiyini bildirib: “”Milli Şura” adlanan qurumun “beynəlxalq məsələlər üzrə komissiyasının sədri G.Hacıbəyli insani dəyərlərlə insani ambisiyaların nə olduğunu hələ də anlamır və bundan sonra da anlamayacağına əminəm”.

### Gültəkin Hacıbəyli - bir medalın iki üzü

Bütün bu deyilənlər bir daha sübut edir ki, G.Hacıbəyli hər sifətdə ola bilir. G.Hacıbəylinin keçmiş qayınanası Nəhayət Məmmədova iddia edir ki, gəlini onun ailəsinə qarşı dələduzluq edib: “Bu satqın və xəyanətkar üçün müqəddəs heç nə yoxdur - nə Vətən, nə ailə!”

Bu yerdə insan psixologiyasının mahir bilicisi Ziqmund Freyd şəxsiyyətin böhranı ilə bağlı məqaləsində qeyd edir ki, insan özözünü təkzib edirsə, “Zaman hər şeyi unutdurur” tezisi ilə vaxtaşırı özünün əksinə çıxırsa, o, artıq tükənib və nə söylədiklərinin, nə də fəaliyyətinin heç bir mənası yoxdur.

Əslində, tükənən tək G.Hacıbəyli deyil. Əli İnsanov, Rüstəm İbrahimbəyov, Əkrəm Əylisli, Cəmil Həsənli və digərlərinin hesabına siyahını uzatmaq da olar. Necə deyərlər, taylı tayını tapar. Görünür, Freyd ya bu adamları tanıyırmış, ya da şəxsiyyət böhranı keçirən hər kəsdə oxşar əlamətlər olduğunu bilirmiş. Elədirsə, psixoloqun fikirlərinin davamına nəzər yetirmək və onun məntiqinə söykənərək, bitdiyi üçün “xainlərə” əhəmiyyət verməmək də olardı. Amma bir məqam var ki, siyasi riyakarlığı, siyasi hərracı özünün həyat tərzinə çevirən, “bağda ərik var idi, salaməleyk var idi, bağda ərik qurtardı, salaməleyk qurtardı” devizini rəhbər tutan satqın radikallar açıq-açığına yalan danışaraq, cəmiyyəti çaşdırmağa çalışırlar. Əgər seçkilər, həqiqətən, belə saxta keçirilirdisə, ay min sifət emblemi, niyə iki dəfə deputat olduğun vaxt bunu bircə dəfə olsun dilinə gətirmədin?! Yoxsa həm seçicilərin, həm də mənsub olduğun siyasi düşərgənin etimadını itirməkdən qorxurdun? Belədirsə, cəsarətsiz adamın siyasətdə nə işi var?! Ziddiyyətli açıqlamaları, xəyanətkar mövqeyi ilə düşündüyü kimi, cəmiyyətin rəğbətini yox, nifrətini qazanacaqsan. Bundan sonra əlavə şərhə ehtiyac yoxdur. Çünki tarix və onun canlı şahidləri heç nəyi və heç kimi unutmur. Necə deyərlər, hər şey elin gözü qabağındadır. Ən böyük tərəzi də məhz odur.

***Rəfiqə HÜSEYNOVA***

# Əhalinin ekoloji təhsili və maarifləndirilməsi

***Ətraf mühit məsələlərinə xüsusi əhəmiyyət verən Azərbaycan dövləti, ölkə Prezidenti İlham Əliyev tərəfindən sahənin qanunvericilik bazasının daha da gücləndirilməsi məqsədilə mütəmadi tədbirlər görülür. 2009-cu ilin martında keçirilən ümumxalq səsverməsində (referendumda) konstitusiyanın sözügedən 39-cu maddəsinə ətraf mühit sahəsində Azərbaycanın qoşulduğu Beynəlxalq Konvensiyaların tələblərindən irəli gələn çox mühüm III-IV hissələr əlavə olundu. Həmin əlavələr aşağıdakı məzmundadır: III. Heç kəs ətraf mühitə, təbii ehtiyatlara qanunla müəyyən edilmiş hədlərdən artıq təhlükə törədə və ya zərər vura bilməz. IV. Dövlət ekoloji tarazlığın saxlanmasına, yabanı bitkilərin (floranın) və vəhşi heyvanların (faunanın) qanunla müəyyən edilmiş növlərinin qorunmasına təminat verir.***

Həmin əlavələr ətraf mühit sahəsində ölkə qanunvericiliyinin beynəlxalq və Avropa ekoloji hüququna hormonizasiyası istiqamətində mühüm konstitusion addım kimi dəyərləndirilməlidir. Sağlamlığın qorunması hüquqi adlanan 41-ci maddənin III hissəsində insanların həyatı və sağlamlığı üçün təhlükə törədən faktları və halları gizlədən vəzifəli şəxslərin qanun əsasında məsuliyyətə cəlb edilməsi müəyyənləşdirilir. Həmin məsuliyyətin hədləri və dərəcələri qüvvədə olan müvafiq normativ-hüquqi aktlarda öz əksini tapır. Zəngin təbiəti olan ölkəmizin florası bir neçə qanunla tənzimlənir: “fitosanitar nəzarəti haqqında” (2006), “Toxumçuluq haqqında” (1997), “Taxıl haqqında” qanunlar (2000) və digərləri. Ölkə faunası “Heyvanlar haqqında” (1999), “Balıqçılıq haqqında” (1998), “Ovçuluq haqqında” (2004), “Baytarlıq haqqında” (2005) və bu qanunlara uyğun qəbul edilmiş digər normativ-hüquqi aktlarla tənzimlənir. Beynəlxalq ekoloji hüquq ətraf mühitə dair məlumat əldə etmək məsələsinə xüsusi önəm verir. Azərbaycan müstəqil dövlət olaraq, bu prinsipi konstitusiyaya (Maddə 39) daxil etmişdir. Azərbaycan bu sahədə beynəlxalq sənəd olan Orxus Konvensiyasına qoşulmuşdur (1999) və bu Konvensiyanın tələblərindən və Konstitusiyadan irəli gələn iki qanun qəbul etmişdir: “Ətraf mühitə dair informasiya almaq barədə” (2002), “Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında” (2002). Bütövlüklə, bu günə kimi ətraf mühit, təbii ehtiyatlar və onlardan istifadə sahəsində 30-dan çox qanun qəbul edilmişdir. Konstitusiyanın 148-ci (II - hissə) və 151-ci maddələrinə əsasən, Azərbaycan dövlətinin qoşulduğu və ratifikasiya etdiyi Beynəlxalq Konvensiyalar, iki tərəfli və çoxtərəfli müqavilələr və digər sənədlər ölkəmizin qanunvericilik sisteminin tərkib hissəsidir və ölkə ərazisində milli qanunvericiliklə eyni (ayrı-ayrı hallarda) üstün qüvvəyə malikdir. Bu gün ölkəmiz ətraf mühit və təbii ehtiyatlar sahəsinin hüquqi tənzimlənmənin beynəlxalq hüquqa və Avropa qanunvericiliyinə yaxınlaşdırmaq üçün müvafiq tədbirlər görür. Müstəqil dövlət olaraq, Azərbaycan Avropa İttifaqı, digər Avroatlantik strukturlara, başqa sahələrdə olduğu kimi, ətraf mühitə dair məsələlərdə də uğurla əməkdaşlıq edir.

Bütövlükdə, Azərbaycanda “yaşıl” iqtisadiyyatın təmin edilməsi istiqamətlərinə “yaşıl” energetika ilə yanaşı, ekoloji cəhətdən təmiz nəqliyyat; “yaşıl” kənd təsərrüfatı və aqrosənaye kompleksi; “yaşıl” tikinti materialları istehsalları və “yaşıl” tikinti; ekoloji sahibkarlığın inkişafı; ekoloji menecment və audit; ekoloji sertifikatlaşdırma və markalanma; “yaşıl” statistika; “yaşıl” vergiqoyma və s. aid edilir. Onu da qeyd etmək lazımdır ki, ölkəmizdə “yaşıl iqtisadiyyat”a keçid mərhələsində ekoloji və iqtisadi tələblərə cavab verməyən çoxlu sayda müəssisələr bağlanmış, digərləri yenidən qurularaq modemləşdirilmiş və yeni aztullantılı texnologiyalar tətbiq olunmuşdur. Davamlı inkişafın məqsədi kimi ekoloji sivilizasiyanın formalaşması çıxış edir. Müəllifi akademik Urxan Ələkbərov olan ekoloji sivilizasiya konsepsiyası ilk dəfə Azərbaycanda irəli sürülmüşdür. “Yaşıl” təfəkkür və “yaşıl” iqtisadiyyata əsaslanan ekoloji sivilizasiyanın əsas məqsədlərindən biri inkişafda müşahidə edilən iki mənfi tendensiyanın “gələcəksiz inkişaf” və “bərabərsizliklə müşahidə edilən inkişaf” ehtimalının qarşısının alınmasıdır. Hazırda ekoloji sivilizasiya anlayışı dünyada geniş yayılmaqdadır. Bir sıra ölkələrdə ekoloji sivilizasiyaya keçid dövlətlərin inkişaf strategiyasının vacib bir istiqaməti kimi qəbul edilmişdir. Hansısa ölkə, yaxud ərazinin ekoloji sivilizasiyaya keçidə hazırlığının qiymətləndirilməsi müxtəlif yollarla həyata keçirilə bilər. Onlardan biri hazırkı dövrdə birincisi ekoloji sivilizasiya əmsalının hesablanmasıdır. Bu əmsalın hesablanmasında əsas məqsəd cəmiyyətin yeni səviyyəyə keçməsi, əhalinin rifahının daim yüksəldilməsi, bu prosesin ətraf təbii və sosial mühitlə harmoniyada idarə edilməsi və sosial məsuliyyətli şəkildə həyata keçirilməsinə hazırlığın qiymətləndirilməsidir. Əmsalı hesablamaq üçün 8 müxtəlif göstəricidən istifadə olunur: demoqrafik göstəricilər; istehlakın xüsusiyyətləri; yaşıl iqtisadiyyat; üzvi kənd təsərrüfatı və qida məhsulları; sağlamlıq göstəriciləri; elm, təhsil və texnologiyalar; yoxsulluq; hüquqi mühit. Azərbaycan Respublikası üçün, hesablamalara görə, ekoloji sivilizasiya əmsalı orta göstəricidən yüksək olmaqla, 0,632 təşkil edir. Azərbaycan Respublikasında çoxşaxəli dövlət siyasətini həyata keçirən ölkə Prezidenti İlham Əliyev ətraf mühitin qorunmasını hər bir ölkənin inkişafının vacib amillərindən birini təşkil etməsindən çıxış edir ki, bu da, Onun bu məsələyə konseptual yanaşmasını ifadə edir. Məhz bu yanaşmanın təzahürü olaraq, dövlətimizin başçısı Nazirlər Kabinetinin 2009-cu ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş geniş iclasında 2010-cu ili Azərbaycanda “Ekologiya İli” elan etmiş və bununla da, “Azərbaycan Respublikasında ekoloji situasiyanın yaxşılaşdırılmasına dair Kompleks Tədbirlər Planına (2006-2010-cu illər üçün)” müvafiq yerinə yetirilən böyük işlərin məntiqi davamı olmaqla, ölkədə genişmiqyaslı aksiyaların dünya birliyi tərəfindən planetimizin təbiətinin xilas olunmasına dair səyləri kontekstində keçirilməsinə start verilmişdir. 2010-cu il fevralın 18-də, xüsusi olaraq, ekoloji problemlərə həsr olunmuş müşavirədə Azərbaycan Prezidenti İlham Əliyev “Ekologiya İli”nin başlıca vəzifəsini müəyyən edərək göstərmişdir: “Əsas məsələ ondan ibarətdir ki, Azərbaycan dövlətinin bu işlərin görülməsi üçün ciddi və güclü iradəsi vardır... 2010-cu il Azərbaycan tarixində nəinki “Ekologiya İli” kimi qalacaq, bu il Azərbaycan tarixinə ekoloji vəziyyətin yaxşılaşdırılması üçün dönüş ili kimi yazılacaqdır”. Aparılan təhlillər ölkəmizdə “Ekologiya İli”ndə dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi altında ətraf mühitin sağlamlaşdırılmasına yönələn ardıcıl tədbirlərin həyata keçirilməsinin xüsusi əhəmiyyət kəsb etdiyini, digər tərəfdən isə, bu işlərin növbəti illərdə ölkədə davam etdirilməsi üçün olduqca əhəmiyyətli olduğunu göstərmişdir. Təqdirəlayiq haldır ki, “Ekologiya İli”ndə həyata keçirilən geniş tədbirlər, bütövlükdə, cəmiyyət üzvlərinin fəal və geniş iştirakı ilə keçmişdir. Dövbtimizin başçısı bu il əzində görülən işlərə yüksək qiymət verərək, bunu xüsusi olaraq vurğulamışdır: “Mən çox şadam ki, “Ekologiya İli” çərçivəsində həm dövlət tərəfindən böyük işlər görüldü, həm də özəl sektor bu işlərə qoşuldu. Ən sevindirici hal isə ondan ibarətdir ki, ölkə əhalisi də bu təşəbbüsə qoşularaq, ekoloji vəziyyətin yaxşılaşdırılmasına öz dəyərli töhfələrini vermişdir” .

Bütövlükdə, 2010-cu il - “Ekologiya İli” davamlı və dinamik inkişaf edən ölkəmiz üçün əlamətdar və gələcəyə hesablanmış strateji xəttin təməlini təşkil edən bir il olmaqla, onun nəticələri mövcud ekoloji vəziyyətin mənzərəsində dönüş mərhələsi yaratmaqla, dövlətimizin ekoloji siyasətində prioritetlərin müəyyən edilməsi üçün zəmin olmuşdur.

**VAHİD ÖMƏROV,**
*fəlsəfə üzrə fəlsəfə doktoru*



Gəlin evimizi birgə qoruyaq!




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

7 mart

Son səhifə


## Teymur Rəcəbov bu turnirdən imtina etdi!



Azərbaycan şahmatçısı Teymur Rəcəbov iddiaçılar turnirində çıxışdan imtina edib. Beynəlxalq Şahmat Federasiyasının rəsmi saytında yer alan məlumatda deyilir ki, şahmatçı şəxsi səbəblərdən bu turnirdə iştirak etməyəcəyinə qərar verib. Şahmatçı bu barədə FIDE-ni xəbərdar edib. Teymur Rəcəbovu turnirdə on iki ay ərzində ən yüksək orta reytinqə sahib olan fransalı şahmatçı Maksim Vaşe-Laqrav əvəz edəcək. Oyunçu artıq məlumatlandırılıb və turnirdə iştirak etməyə hazırdır. Qeyd edək ki, Teymur Rəcəbov 2019-cu ildə keçirilmiş dünya kubokunun sahibi olmaqla iddiaçılar turnirində iştirak hüququ da qazanmışdı.

## Qocalanda ağılı itirməməyin sadə yolu tapılıb

***ABŞ-da Stouni Bruk Universitetinin alimləri qocalma ilə əlaqəli neyrobioloji dəyişikliklərin 50 yaşına yaxınlaşan insanlarda baş verdiyini müəyyənləşdiriblər. MedicalXpress-in xəbərinə görə, istehlak edilən karbohidratların miqdarını azaltmaqla bunun qarşısını almaq olar. Tədqiqatçılar 18-88 yaş arası 1000 nəfər üzərində təcrübə apararaq, onlara funksional maqnit-rezonans beyin tomoqrafiyası tətbiq ediblər.***



Yaşlandıqca idrak funksiyalarının azalması və insulin müqavimətinin artması ilə əlaqələndirilən beyin bölgələri arasındakı funksional əlaqələrin pozulmasının ortaya çıxdığı məlum olub. Bildirilir ki, diabet öncəsi vəziyyət və 2-ci tip diabet neyronlarıqlükozanın effektiv metabolizmi prosesinə manеə törədir.

Elm adamları beyinin sabitliyini iki pəhriz ilə qiymətləndirirlər: müntəzəm və az karbohidrat - hansı ki, tərkibində şəkər, düyü və nişastalı tərəvəzlər istisna olmaqla salat, ət və ya balıq var. Nəticələr beyinin qocalma əlamətlərinin artıq 47 yaşında, ən sürətli formada 60 yaşında ortaya çıxdığını göstərib. 50 yaşdan kiçik şəxslərdə belə pəhriz beyinin fəaliyyətini artırıb və funksional şəbəkələrini sabitləşdirib.

## Məşhur belaruslu dirijor Bakıda çıxış edəcək




Martın 14-də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında C.Verdinin "Aida" operası nümayiş ediləcək. Teatrın mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, səhnə əsərində Azərbaycan Opera və Balet Teatrının solistləri ilə yanaşı, Rusiya və Ukraynadan dəvət olunmuş sənət ulduzları da iştirak edəcəklər. Operada Radames partiyasında K.Stanislavski və V.Nemiroviç-Dançenko adına Moskva Akademik Teatrının aparıcı solisti, vokalçıların beynəlxalq müsabiqələrinin laureatı Nikolay Yeroxin çıxış edəcək. Aida partiyasını Azərbaycanın Əməkdar artisti, "Humay" milli mükafatının laureatı Afaq Abbasova ifa edəcək.

## Restorandan oğurluq edən şəxs tutulub



Xətai rayonu ərazisində oğurluqla məşğul olan şəxs tutulub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, fevralın 26-da Xətai rayon ərazisindəki restoranların birindən 9000 manat dəyərində 5 ədəd televizor, 1 ədəd proyektor lövhəsi və mobil telefon aksesuarı oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini R.Zeynalov Rayon Polis İdarəsinin 37-ci Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb. Faktla bağlı araşdırma aparılır.

## Dünya üzrə koronavirusa 98876 nəfər yoluxub

Dekabr ayından yayılmağa başlayan yeni növ koronavirusla bağlı son vəziyyət açıqlanıb. Çində baş qaldırmış yeni koronavirus (COVID-19) artıq 93 ölkəyə yayılıb. Dünya üzrə koronavirusa 98876 nəfər yoluxub, 3390 nəfər ölüb, 55812 nəfər isə sağalıb. Dünya Səhiyyə Təşkilatının məlumatında deyilir ki, ötən müddət ərzində İsveçrə, Norveç, Avstriya, Hindistan, Finlandiya, Pakistan, Filippin, Butan, Kamerun, Vatikan və Serbiyada da koronavirusa yoluxma qeydə alınıb. Bununla da, koronavirus aşkarlanan ölkələrin sayı 93-ə çatıb. Virusa yoluxma və ölüm sayına görə epidemiyanın baş qaldırdığı Çin liderdir. Çində indiyədək 80559 nəfər koronavirusa yoluxub, 3042 nəfər ölüb, 53929 nəfər isə sağalıb.

## Masallıda "Niva" dərəyə aşdı, 2 qadın və 1 uşaq öldü!

Martın 6-da Masallı rayonunun Köhnə Zuvand kəndi ərazisində ağır yol-nəqliyyat hadisəsi baş verib. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, "Niva" markalı maşının dərəyə aşması nəticəsində 2 qadın və 1 uşaq ölüb. Avtomobildə olan digər 3 nəfər isə Lənkəran Rayon Mərkəzi Xəstəxanasına çatdırılıb. Onlardan birinin vəziyyəti ağırdır. Faktla bağlı araşdırma aparılır.



## Bakıda əcnəbi vətəndaşın pulu və telefonu oğurlandı



Əcnəbi vətəndaşa məxsus pulu və mobil telefonu oğurlamaqda şübhəli bilinən X.Əliyev saxlanılıb. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, Binəqədi RPİ 6-cı PB əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində fevralın 29-da əcnəbi vətəndaşa məxsus 300 manat, 1550 lirə, 280 lari pulu və mobil telefonu oğurlamaqda şübhəli bilinən İmişli rayon sakini, əvvəllər məhkum olunmuş X.Əliyev saxlanılıb.


**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**